Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

# Mədəniyyət

www.medeniyyet.az

13 APREL 2018
29 [1519]



2

# Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs verdi

"Xalq-iqtidar birliyi inkişafımızın əsas amilidir. Bütün bu uğurları biz birlikdə qazandıq"

## "Madam Batterflyay" bu dəfə İtaliyadan gələcək

4

Mayın 3-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə İtaliya Respublikasının ölkəmizdəki səfirliyinin birgə mədəni proqramı çərçivəsində teatrda Cakomo Puççininin "Madam Batterflyay" ("Çio-Çio-San") operası oynanılacaq. Tamaşada Çio-Çio-San partiyasını İtaliyanın tanınmış opera müğənnisi Silvana Froli ifa edəcək.



## Respublika elmi-ifaçılıq müsabiqəsi başa çatıb

5

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında dahi bəstəkar Qara Qarayevin 100 illiyinə həsr olunmuş pianoçuların V Respublika elmi-ifaçılıq müsabiqəsinə yekun vurulub. Müsabiqəyə respublikanın 29 şəhər və rayonundan üç yaş qrupu üzrə 144 nəfər qatılıb. İştirakçılar birinci turda ifa etdikləri əsərlər üzrə elmi məruzə ilə çıxış edib, ikinci turda isə bu əsərləri fortepianoda səsləndiriblər. Münsiflər heyəti tərəfindən seçilən 11 iştirakçı müsabiqənin laureatı, 32 nəfər isə diplomantı adını qazanıb.



3

## "Aşıq musiqisi axşamları"nda "Yada salaq Aşıq Ədaləti"

Aprelin 12-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Aşıqlar Birliyi ilə birgə həyata keçirilən "Aşıq musiqisi axşamları" layihəsində növbəti tədbir keçirildi. Budəfəki saz-söz məclisi ustad sənətkar, Əməkdar incəsənət xadimi Ədalət Nəsibovun xatirəsinə həsr olunmuşdu. "Yada salaq Aşıq Ədaləti" adlı ədəbi-musiqili gecədə sənətkarın həyat və yaradıcılığından söz açıldı.

## "İslam mədəniyyəti paytaxtı"na infotur təşkil edilib

"Naxçıvan bütün bu gözəllikləri ilə qarşıdakı illərdə daha çox turist qəbul edəcək"



6

# Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs verdi

**Aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkiləri ölkə əhalisinin mütləq əksəriyyətinin mövcud siyasi kursa, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə həyata keçirilən dinamik inkişaf, genişmiqyaslı quruculuq və islahatların davam etməsinə tam dəstəyini nümayiş etdirdi.**

## "Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq"

Mərkəzi Seçki Komissiyasının məlumatına görə, 125 seçki dairəsi üzrə 5 min 641 seçki məntəqəsində ümumilikdə 3 milyon 962 min 123 seçici səs verib. Prezident seçkilərində seçici fəallığı 74,3 faiz olub. Seçicilərin 86 faizi Yeni Azərbaycan Partiyasının namizədi, dövlət başçısı İlham Əliyevə səs verib.

Prezident İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib.

"Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan



xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq", - deyə dövlət başçısı vurğulayıb.

Qeyd olunub ki, xalq-iqtidar birliyi, məqsədyönlü siyasət bu gün Azərbaycanı qüdrətli dövlətə çevirib: "Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik".

Prezident bildirib ki, ölkəmiz bundan sonra daha güclü olmalıdır. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq: "Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır".

Dövlət başçısı müraciətinin sonunda deyib: "Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!"

# "Dini-mədəni abidələrimiz bizim tariximizdir"

**Dini dəyərlər bizim milli mənəvi dəyərlərimizin tərkib hissəsidir. Azərbaycan xalqı öz köklərinə, öz ənənələrinə sadiq olan xalqdır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışı zamanı dini icmanın üzvləri ilə görüşündə deyib.

Prezident diqqətə çatdırıb ki, son vaxtlar bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə təmir edilib və yeni məscidlər tikilib: "Dövlət tərəfindən bu işlərin görülməsi dövlətdin münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir. Bu münasibətlər Azərbaycanda nümunəvi xarakter daşıyır. Mən çox şadam ki, son illər ərzində Azərbaycanda bizim dini-mədəni abidələrimiz qorunur, bərpa olunur. Bu, bizim tariximizdir".

Dövlət başçısı qeyd edib ki, keçən il Azərbaycanda "İslam həmrəyliyi ili" elan olundu, Bakıda İslam Həmrəyliyi Oyunları keçirildi: "Bütün müsəlman aləmini biz Bakıda qonaq etdik, onlara öz qonaqpərvərliyimizi göstərdik. Yəni, İslam həmrəyliyi üçün Azərbaycan çox böyük işlər görür. Bu işlər bütün İslam aləmində yüksək qiymətləndirilir. Azərbaycan müsəlmanları bunu yüksək qiymətləndirirlər. Bizim siyasətimiz əməli işlərdə özünü göstərir. Bax, bu gözəl memarlıq abidəsi bu gün Hacı Cavad məscidinin icmasına təhvil verilir".

Qeyd edək ki, Azərbaycan Prezidentinin tapşırığı ilə Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi 1 ünvanında Hacı Cavad məscidinin yeni binasının tikintisinə 2017-ci il iyulun 2-də başlanılmışdı. Ölkə başçısı məscidin yeni binasının tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə maraqlanıb, görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib.



Məscidin yeni binası 1200 kvadratmetr ərazini əhatə edir. İbadət zalının sahəsi 400 kvadratmetrə yaxındır. Milli memarlıq üslubunda və zövqlə inşa olunan ibadət evinin günbəzinin hündürlüyü 18, minarənin hündürlüyü isə 33,7 metrdir.

Eyni vaxtda 500-dən çox insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub.

# TÜRKSOY-un və DTT-nin baş katibləri Azərbaycan rəhbərini təbrik ediblər

**TÜRKSOY-un baş katibi Düsen Kaseinov aprelin 11-də keçirilən seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə dövlət başçısı İlham Əliyevə təbrik məktubu göndərib.**

Düsen Kaseinov ölkə rəhbərini TÜRKSOY-un Baş katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adından səmimi qəlbdən təbrik edib. O, TÜRKSOY ilə Azərbaycan Respublikası arasında məhsuldar əməkdaşlığın və mədəni əlaqələrin daha da genişlənərək inkişaf edəcəyinə dərin inamını bildirib: "Əmin ola bilərsiniz ki, bu il 25 illiyini qeyd etdiyimiz beynəlxalq TÜRKSOY təşkilatı bundan sonra da üzv ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi və ümumtürk mədəniyyətinin dünyada tanıdılması istiqamətində aparılan bütün işlərdə daim Azərbaycanın yanında olacaqdır".

Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili də Azərbaycan Respublikasının Prezidentinə məktub göndərib.

O, aprelin 5-7-də Bakıda keçirilən AİTF sərgisində iştirakını, dövlət başçısı ilə görüşünü xatırladaraq qeyd edir ki, Azərbaycanın davamlı inkişafının təmin edilməsində ölkənizin geniş turizm imkanlarına malik olduğunu öyrənməkdən məmnun qaldım. DTT-nin baş katibi Azərbaycan rəhbərinə təbrikini də çatdırıb: "Bu xoş fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Əminəm ki, prezidentliyinizin yeni mərhələsində Azərbaycan Respublikası ilə Dünya Turizm Təşkilatı arasında mövcud olan sıx dostluq əlaqələri daha da möhkəmlənəcək. Azərbaycan Respublikası ilə Dünya Turizm Təşkilatı arasında əməkdaşlığın daha da genişlənməsi üçün Sizin dəstəyinizin davamlı olacağına ümidvaram".

# Rusiyalı arxeoloqlarla görüş

Rus Coğrafiya Cəmiyyəti Sualtı Tədqiqatlar Mərkəzinin mütəxəssislərindən ibarət nümayəndə heyəti AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində olub.

Rusiyalı arxeoloqlar əvvəlcə müəssisənin ekspozisiyası ilə tanış olublar. Muzeyin direktoru, akademik Nailə Vəlixanlı ilə görüşdə Xəzər akvatoriyasında gəmiçiliyin qədim tarixi ilə bağlı əşyavi mənbələr əldə etmək məqsədilə aparılan sualtı tədqiqatlardan bəhs olunub. N.Vəlixanlı muzeyin 1968-1986-cı illərdə apardığı sualtı arxeoloji tədqiqatlar barədə ətraflı məlumat verib.

Görüşdə qarşılıqlı əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb. Qonaqlara muzeyin nəşrləri təqdim edilib.

# 1919-cu ilə aid "Milli nəğmələr"

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) tərcüməçi, naşir Ağa Həsən Mirzəzadənin topladığı "Milli nəğmələr" kitabı saxlanılır.

MEK-dən bildiriblər ki, 1919-cu ildə Bakıda "İran" elektrik mətbəəsində çap olunan kitabda A.Səhhət, M.Ə.Sabir, M.Hadi və digər ədiblərin şeirləri yer alıb. Onların arasında Azərbaycan himninin istiqlal şairi Əhməd Cavada məxsus mətni də var. Himnin sözləri kitabda "Vətən marşı" və "CAMO bəy" (Cavad Axundzadə Məhəmmədəli Oğlu) imzası ilə verilib.

Ərəb qrafikalı əlifba ilə yazılmış kitab rəqəmsallaşdırılıb və MEK-in elektron kataloquna salınıb.

# Terminoloji informasiya sistemi yaradılacaq

Azərbaycanda terminoloji informasiya sisteminin yaradılması üçün metod və alqoritmlər işləniləcək.

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İnformasiya Texnologiyaları İnstitutunun elmi şurasının növbəti iclasında məlumat verilib.

İclasda cari ildə nəzərdə tutulan elmi tədqiqat işləri barədə danışılıb, e-dövlət mühitində Azərbaycan dilinin tətbiqi və inkişafına dair bəzi xidmətlərin yaradılması konsepsiyasının işlənilməsinin nəzərdə tutulduğu diqqətə çatdırılıb.

# "Aşıq musiqisi axşamları"nda "Yada salaq Aşıq Ədaləti"

**Aprelin 12-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Aşıqlar Birliyi ilə birgə həyata keçirilən "Aşıq musiqisi axşamları" layihəsində növbəti tədbir keçirildi. Budəfəki saz-söz məclisi ustad sənətkar, Əməkdar incəsənət xadimi Ədalət Nəsibovun xatirəsinə həsr olunmuşdu.**

"Yada salaq Aşıq Ədaləti" adlı ədəbi-musiqili proqramın ssenari müəllifi və rejissoru Azərbaycan Aşıqlar Birliyinin katibi, Əməkdar incəsənət xadimi Sənubər Bağırova idi.

Tədbirin aparıcısı Çiçək Mahmudqızı sənətkarın həyat və yaradıcılığından söz açdı. Bildirdi ki, Ədalət Məhəmmədəli oğlu Nəsibov 27 yanvar 1939-cu ildə anadan olub. Saz çalmağı atasından öyrənib. Gənc yaşlarından fitri istedadı üzə çıxıb, məclislərə dəvət alıb. Qeyd edildi ki, ulu aşıq sənətimizin, saz ifaçılığının yaşadılmasında, inkişafında Ədalət Nəsibov kimi sənətkarların müstəsna xidmətləri var. Onun ifasında yüzlərlə sənət incisi, saz havası bu gün gənc aşıqlar üçün bir örnəkdir. 14 sentyabr 2017-ci ildə 78 yaşında vəfat edən ustadın sənəti, saz ifaçılığı unudulmaz lent yazılarında yaşayır





və yaşayacaq.

Gecədə "Dədə Ədalət" sənədli filmindən parça nümayiş olundu.

Sonra Ramin Qarayev, Şəhriyar Şahverdiyev, Rəfiqə Göyçəli, Zülfiyyə İbadova, Avdı Musayev və başqa aşıqların ifasında saz havaları səsləndi.

**Savalan**

**Xəbər verdiyimiz kimi, 10-12 aprel tarixində Bakıda "Kainat" Gənclik Mərkəzinin ənənəvi layihəsi üzrə, İSESCO-nun, Gənclər və İdman, Mədəniyyət və Turizm, Xarici İşlər nazirliklərinin dəstəyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının iştirakı ilə İslam dünyası gənc (20 yaşadək) klassik musiqi ifaçılarının VII Beynəlxalq müsabiqəsi keçirilib.**

# İslam dünyası gənc klassik musiqi ifaçılarının müsabiqəsi başa çatdı

Aprelin 12-də Bakı Musiqi Akademiyasında müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi və qala-konserti oldu. Qeyd edək ki, builki müsabiqə görkəmli bəstəkar Qara Qarayevin 100 illiyinə həsr olunub.

Mərasimdə çıxış edən gənclər və idman nazirinin müavini Fərhad Hacıyev bildirdi ki, Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam həmrəyliyi ili" elan etməsi və ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunları müsəlman ölkələri arasında münasibətləri, xüsusilə də mədəni əlaqələri daha da möhkəmləndirməyə xidmət edib. Son illər ölkə rəhbərliyinin böyük dəstəyi sayəsində Azərbaycan iri beynəlxalq mədəniyyət tədbirlərinə - festivallara, müsabiqələrə, forumlara uğurla ev sahibliyi edir. Nazir müavini mədəniyyətimizin dünyada təbliğ olunmasında belə tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirdi.





Mədəniyyət və Turizm Nazirliyinin Elm, təhsil və gənclərlə iş şöbəsinin müdiri Yaşar Əliyev çıxışında ənənəvi olaraq keçirilən müsabiqənin əhəmiyyətini vurğuladı. Qeyd etdi ki, ölkəmizdə gənc nəslin istedadının ortaya çıxarılması üçün müxtəlif müsabiqələr təşkil olunur, onların bilik və bacarığının artırılması istiqamətində dövlətimiz öz dəstəyini əsirgəmir.

Sonra Yaşar Əliyev İSESCO-nun baş katibi Əbdüləziz bin Osman əl-Tüveycrinin müsabiqəyə ünvanladığı məktubu oxudu.

Tədbirdə çıxış edən "Kainat" Gənclik Mərkəzinin direktoru Rahib Rəsulzadə və münsiflər heyətinin sədri, BMA-nın prorektoru, professor Yeganə Axundova yeddinci dəfə keçirilən müsabiqənin coğrafiyasının ildən-ilə genişləndiyini bildirdilər.

Vurğulandı ki, layihə təkcə gənclərin istedadını nümayiş etdirmək cəhətdən deyil, həm də onları bir-birinə yaxınlaşdırmaq baxımından əhəmiyyətlidir.

Daha sonra müsabiqənin qaliblərinin adları açıqlandı, onlara mükafatlar təqdim olundu.

Sonda qaliblərin iştirakı ilə qala-konsert təqdim edildi.

Qeyd edək ki, müsabiqəyə 9 ölkənin (Azərbaycan, Türkiyə, Misir, Rusiya Federasiyası (Tatarıstan), Qazaxıstan, Özbəkistan, Mərakeş, İran, Əlcəzair) təmsilçiləri qatılıb.

**Fariz**

# Tanınmış bəstəkarın 60 illik yubileyi qeyd olunub

**Aprelin 12-də Azərbaycan Bəstəkarlar İttifaqında tanınmış bəstəkar Məmməd Cəfərovun 60 illik yubileyinə həsr olunmuş müəllif konserti keçirilib.**

İttifaqın sədri, Xalq artisti, professor Firəngiz Əlizadə çıxış edərək bəstəkarın ömür yoluna nəzər salıb, musiqi tariximizə verdiyi töhfələrdən danışıb. Bildirib ki, Bəstəkarlar İttifaqının Gəncə təşkilatının sədri olan Məmməd Cəfərov yaradıcılığına böyük tələbkarlıqla və məsuliyyətlə yanaşır. Ali musiqi təhsilini Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsində alan M.Cəfərovun sənətkar kimi yetişməsində görkəmli bəstəkarlar İsmayıl Hacıbəyov, Aqşin Əlizadə və Fərəc Qarayevin əhəmiyyətli rolu olub. O, Nazim Hikmətin sözlərinə yazdığı "Həsrət" və "Vida" romanslarını İsmayıl Hacıbəyovun xatirəsinə həsr edib.



Müxtəlif musiqi janrlarında qələmini sınayan, milli koloriti ilə seçilən əsərlər yaradan bəstəkarın yaradıcılığında vokal, kamera-instrumental və xor əsərləri üstünlük təşkil edir. O, piano üçün "Naxışlar" məcmuəsinin, iki piano üçün "Musiqi", violin və piano üçün "Sonata-poema", Nazim Hikmətin sözlərinə vokal silsilənin, solistlər, xor və simfonik orkestr üçün "Yuxulama, oğuz eli", "Vətən dedim", "Cavad xan" kantatalarının, kamera orkestri üçün pyeslərin, mahnı və romansların müəllifidir. Onun əsərləri beynəlxalq festivallarda uğurla ifa olunur və musiqi ictimaiyyəti tərəfindən maraqla qarşılanır.

Hazırda pedaqoji fəaliyyətini Qəmbər Hüseynli adına Gəncə Musiqi Kollecində davam etdirən M.Cəfərov gənc musiqiçilər nəslinin yetişməsində var qüvvəsi ilə çalışır.

Sonra tədbir konsert proqramı ilə davam edib. Konsertdə Şəhla Ələkbərovanın bədii rəhbərliyi ilə Azərbaycan Televiziyası və Radiosunun Cahangir Cahangirov adına Xorunun ifasında bəstəkarın kamera, vokal və xor əsərləri ifa olunub. Gənc vokalçılar Fidan Məmmədzadə və Fəxri Kazım Nicat sənətkarın "Vida", "Həsrət" və başqa romanslarını səsləndiriblər.

Konsert proqramında yubilyarın ifası tədbirə xoş ovqat bəxş edib.

# "Şah Qacar" növbəti dəfə səhnədə

Aprelin 13-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Şah Qacar" tamaşası növbəti dəfə nümayiş olunacaq.

Teatrın mətbuat xidmətindən bildirilib ki, Əməkdar incəsənət xadimi Əli Əmirlinin "Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd Şah Qacar" pyesi əsasında hazırlanan səhnə əsərinin quruluşçu rejissoru və rəssamı Xalq artisti Azərpaşa Nemətov, rejissoru Anar Babalı, bəstəkarı Xalq artisti Siyavuş Kərimi, işıq rəssamı Rafael Həsənov, elmi məsləhətçisi akademik Çingiz Qacardır.

Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında hazırlanan ikihissəli səhnə əsərində teatrın tanınmış aktyorları iştirak edir. Baş rolda Əməkdar artist Abbas Qəhrəmanov səhnəyə çıxacaq.

## Əməkdaşlığa dair memorandum imzalanıb

Aprelin 12-də AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Azərbaycan Yazıçılar Birliyinin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli klassik və müasir Azərbaycan ədəbiyyatının dünyada tanıdılmasında, eləcə də xarici ölkə yazıçı və şairlərinin əsərlərinin dilimizə tərcümə olunaraq oxuculara çatdırılmasında mərkəzin fəaliyyətini yüksək dəyərləndirib.

Öz növbəsində Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Səlim Babullaoğlu bildirib ki, ədəbi əlaqələrin genişləndirilməsini nəzərdə tutan memorandum AMEA-nın humanitar sahədə çalışan alimlərinin, xüsusilə ədəbiyyatşünasların elmi əsərlərinin mərkəzin xətti ilə xarici dillərə tərcüməsi işinə əlavə imkanlar yaradacaq.

# Elektron kitabxana sisteminin və innovasiyaların tətbiqi

### Milli Kitabxanada treninq keçirilir



**Aprelin 12-də Azərbaycan Milli Kitabxanasında ALİSA elektron kitabxana sisteminin və innovasiyaların kitabxanalarda tətbiqi mövzusunda treninq başlayıb.**

Mədəniyyət və Turizm Nazirliyinin və Milli Kitabxananın birgə təşkilatçılığı ilə aprelin 18-dək davam edəcək treninqdə Salyan, Neftçala, Göyçay, Ağdaş mərkəzi kitabxanalarının əməkdaşları iştirak edirlər. Təlimlər Milli Kitabxananın Treninq mərkəzində keçiriləcək.

Tədbirin açılışında Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək treninq barədə danışıb. O, elektron kitabxana sisteminin və innovasiyaların kitabxanalarda tətbiqinin vacibliyindən bəhs edib, tövsiyələrini verib.

Qeyd edək ki, treninq mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin yerlərdə keçirdiyi qəbullar zamanı kitabxana işçilərinin müraciətləri əsasında təşkil edilib.

**Lalə**

## "Madam Batterflyay" bu dəfə İtaliyadan gələcək



Gələn ay paytaxtımızda operasevərləri sürpriz gözləyir. Mayın 3-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə İtaliya Respublikasının ölkəmizdəki səfirliyinin birgə mədəni proqramı çərçivəsində teatrda Cakomo Puççininin "Madam Batterlyay" ("Çio-Çio-San") operası oynanılacaq.

Teatrın daimi repertuarında olan bu tamaşada Çio-Çio-San partiyasını İtaliyanın tanınmış opera müğənnisi Silvana Froli ifa edəcək. Sinyora Froli indiyədək Belçika, Almaniya, Norveç, İngiltərə, İspaniya və ABŞ opera teatrlarında, müxtəlif klassik musiqi festivallarında uğurla çıxış edib. Tamaşada Şarples partiyasını Ukraynanın Əməkdar artisti, Azərbaycan operasevərlərinin yaxşı tanıdığı Dmitri Qrişin ifa edəcək.

"Madam Batterflyay"dakı digər partiyaların ifaçıları isə öz teatrımızın solistləri - əməkdar artistlər Fərid Əliyev (Pinkerton), Səbinə Vahabzadə (Suzuki), Əliəhməd İbrahimov (Qoro), eləcə də Tural Ağasıyev (Yamadori) və Səbinə Əhmədova (Ket) olacaq.

Tamaşanı orkestr çökəyindən tanınmış italyan dirijoru, professor Yakopo Sipari di Peskasseroli idarə edəcək. Maestro Peskasseroli Makedoniya Dövlət Opera və Balet Teatrının dirijoru, həmçinin Qətər, İstanbul, Belqrad və Meksikada orkestrlərin dəvətli dirijorudur.

**G.Mirməmməd**

## "Tənbəl Əhməd" mövsümün sonunadək səhnəyə çıxacaq

**90 illik yubileyini qeyd etməyə hazırlaşan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında mövsümün növbəti tamaşasının məşqlərinə başlanılıb.**

Azərbaycan xalq nağılı əsasında səhnələşdirilmiş "Tənbəl Əhməd" tamaşası uşaq və yeniyetmələrə xeyirxahlıq, zəhmətkeşlik, sədaqət kimi insani keyfiyyətlərin nə qədər mühüm olduğunu göstərmək niyyətindədir.

Tamaşaya gənc rejissor Ayla Osmanova quruluş verir, əsərin plastik həlli isə Ceyhun Dadaşova həvalə edilib. "Tənbəl Əhməd"in quruluşçu rəssamı Telman Şıxıyevdir.

Teatrın mətbuat xidmətindən bildiriblər ki, səhnə əsərində əməkdar artistlər Nəsibə Eldarova, Vahid Əliyev, aktyorlardan Səbinə Məmmədova, Anar Seyfullayev, Zümrüd Quliyeva, Müşfiq Əliyev, Küşvər Şərifova, Xəyalə Meydanova və başqaları məşğuldur.

"Tənbəl Əhməd"in mövsümün sonunadək tamaşaçılara təqdim edilməsi nəzərdə tutulur.



## Dörd ölkədən beş rejissor və bir "Uçqun"



Gəncə Dövlət Dram Teatrının baş rejissoru İradə Gözəlova bu günlərdə Gürcüstanda rejissor laboratoriyasında iştirak edib. O, maraqlı yaradıcılıq görüşü barədə öz fikirlərini bizimlə bölüşüb:

- Tbilisidəki S.Axmeteli adına Tbilisi Dram Teatrının bədii rəhbəri İrakli Qogiya Gürcüstanın dağlıq ərazisində, Acarıstanda Xulo bələdiyyəsinin mərkəzi olan şəhərcikdə beynəlxalq rejissor laboratoriyası təşkil etmişdi. Mən laboratoriyaya hazırlaşanda tanınmış türk dramaturqu Tuncər Cücənoğlunun "Uçqun" pyesini seçib iştirakçılara təklif etmişdim. Düşünmüşdüm ki, uca dağların arasında yerləşən, pyesdəki əhvalatın baş verdiyi coğrafi məkana oxşar bölgədə belə bir əsər üzərində çalışmaq daha maraqlı olar. Xulo Dram Teatrının bədii rəhbəri Roin Surmanidze pyesin tamaşaya qoyulması üçün hər bir şəraiti yaratdı. Ukraynadan Maksim Kozolup, Belarusdan Roman Şidlovski, Gürcüstandan layihənin rəhbəri İrakli Qogiya və digər rejissor Otar Katamadze ilə birlikdə qısa müddətdə tamaşa üzərində işlədik.

Premyeraya bir neçə gün qalmış pyesin müəllifi Tuncər Cücənoğlu da Xuloya gələrək məşqlərə baxdı, öz məsləhətlərini verdi, aprelin 5-də premyerada iştirak etdi.

- Bəs bizim necə, beş rejissorun bir tamaşasını canlı seyr etmək imkanımız olacaq?

- Elə Xuloda qərar verildi ki, bu tamaşa digər ölkələrdə, o cümlədən onun hazırlanmasında iştirak etmiş rejissorların vətənində oynanılsın. Artıq "Uçqun"un Türkiyənin Trabzon və Ukraynanın Kiyev şəhərlərində göstərilməsi qərara alınıb. Yəqin ki, Azərbaycanda da bu tamaşa nümayiş ediləcək.

**Gülcahan**

## Paytaxt məktəblisinin rəsmi İtaliyada birinci yeri tutub

Paytaxtın 328 nömrəli tam orta məktəbinin X sinif şagirdi Bəhruz Zamanlının çəkdiyi "Buta" rəsmi İtaliyada keçirilən beynəlxalq rəsm festivalında birinci yerə layiq görülüb.

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildiriblər ki, İtaliyanın Rimini şəhərində keçirilən "İtalian Break" mədəniyyət və incəsənət festivalında 28 ölkə təmsil olunub. Medal, diplom və sertifikata layiq görülən B.Zamanlı növbəti "İtalian Break" mədəniyyət və incəsənət festivalında iştirak üçün dəvət alıb, eləcə də "Play 2018" internet müsabiqəsinə qatılmaq şansı əldə edib.



**Aprelin 9-da P.İ.Çaykovksi adına Moskva Dövlət Konservatoriyasının Böyük zalında XX əsrin görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin anadan olmasının 100 illiyinə həsr edilmiş xatirə gecəsi keçirilib.**

# Moskva Konservatoriyasında Qara Qarayevin yubileyinə həsr edilmiş gecə





Rusiya Federasiyası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil olunmuş xatirə gecəsinin birinci hissəsində Qara Qarayevin müəllimi və dostu, böyük bəstəkar Dmitri Şostakoviçin "Hamlet" kinofilminə yazdığı musiqidən süita və P.İ.Çaykovksi adına Moskva Dövlət Konservatoriyasının professoru Fərəc Qarayevin atasının xatirəsinə həsr etdiyi "Vida rapsodiyası" səslənib.

Sənətşünaslıq doktoru, Müasir Musiqi Assosiasiyasının aparıcı eksperti Rauf Fərhadov gecədə çıxış edərək Qara Qarayevin yaradıcılığı barədə məlumat verib.

Sonra dirijor Anatoli Levinin rəhbərliyi ilə Moskva Konservatoriyasının Simfonik Konsert Orkestrinin müşayiəti ilə Rusiya Böyük Teatrının solisti, Azərbaycanın Əməkdar artisti Dinara Əliyeva və beynəlxalq müsabiqələr laureatı Nikita Borisoqlebski çıxış ediblər.

# Respublika elmi-ifaçılıq müsabiqəsinə yekun vurulub

**Xəbər verdiyimiz kimi, aprelin 2-dən 9-dək Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) dahi bəstəkar Qara Qarayevin 100 illiyinə həsr olunmuş pianoçuların V Respublika elmi-ifaçılıq müsabiqəsi keçirilib.**

Müsabiqənin təşkilat komitəsinin və münsiflər heyətinin sədri BMA-nın rektoru, SSRİ Xalq artisti, professor Fərhad Bədəlbəyli, layihənin müəllifi və bədii rəhbəri BMA-nın nəzdindəki Orta ixtisas məktəb-studiyasının direktoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor, Əməkdar incəsənət xadimi Tərlan Seyidovdur.



Respublikanın 29 şəhər və rayonundan 144 iştirakçı üç yaş qrupu üzrə iştirak etdiyi müsabiqəyə yekun vurulub. Münsiflər heyəti tərəfindən seçilən 11 iştirakçı müsabiqənin laureatı, 32 nəfər isə diplomantı adını qazanıb.

Müsabiqənin şərtlərinə görə, iştirakçılar birinci turda ifa etdikləri əsərlər üzrə elmi məruzə ilə çıxış edib, ikinci turda isə bu əsərləri fortepianoda səsləndiriblər.

Yekun mərasimdə BMA-nın tədris işləri üzrə prorektoru Nərminə Quliyeva çıxış edərək iştirakçıları təbrik edib. O, layihə rəhbəri Tərlan Seyidovun bu səpkili tədbirlərin keçirilməsində xüsusi rolunu vurğulayıb.

Sonra qaliblər diplomlarla təltif olunub. Birinci dərəcəli diploma məktəb-studiyanın 4-cü sinif şagirdi Daniil Tyurin (müəllim Nərgiz Mansurova) layiq görülüb. Digər laureatlar - Bakıdan Şirin Əmiraslanova, Amin Zülfüqarlı, Səmra Həsənli, Əsmər Alxazova, Fidan Əmişova, Lənkərandan Sudana Cavadzadə, Gəncədən Fidan Bayramova, Göyçaydan Şöləxanım İbrahimli, Şirvandan Fidan Əkbərli, Yevlaxdan Sevda Feyzullayevadır.

Tədbir pianoçuların V Respublika elmi-ifaçılıq müsabiqəsi laureatlarının qala-konserti ilə başa çatıb.

# Türkiyəli musiqiçi tələbələrə ustad dərsləri keçib



Anadolu Universiteti Dövlət Konservatoriyasının dosenti, tanınmış violin ifaçısı Hüseyn Bülent Akdenizin iştirakı ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) ustad dərsləri təşkil edilib.

BMA-dan bildirilib ki, akademiyanın tələbələri üçün nəzərdə tutulmuş ustad dərslərində V.A.Mosartın "Konsert № 5", P.İ.Çaykovskinin "Vals - Skerso", İ.S.Baxın "2 nömrəli partita"sından "Sarabanda" və "Jiqa" əsərləri araşdırılaraq ifaçılıq xüsusiyyətləri və çətinlikləri haqqında müzakirələr aparılıb.

# "Suvar" ansamblı konsert proqramı ilə çıxış edəcək

Mayın 7-də Heydər Əliyev Sarayında "Suvar" ləzgi və rəqs ansamblı konsert proqramı ilə çıxış edəcək.

Kollektivin bədii rəhbəri Zavir Nəcəfov bildirib ki, konsert Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunacaq. Tədbir "Samur" Ləzgi Milli Mərkəzinin dəstəyi ilə keçiriləcək.

Qeyd edək ki, "Suvar" ləzgi mahnı və rəqs ansamblı ("suvar" ləzgi dilində "bayram" deməkdir) 1996-cı ildə Azərbaycanın Əməkdar mədəniyyət işçisi, yazıçı-jurnalist Sədaqət Kərimovanın təşəbbüsü və "Samur" Ləzgi Milli Mərkəzinin dəstəyi ilə yaradılıb. 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ansambla "Xalq kollektivi" fəxri adı verilib.

# Gənc kamança ifaçıları müsabiqəsinin seçim mərhələsi

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən gənc kamança ifaçılarının Habil Əliyev adına II Respublika müsabiqəsinin I seçim mərhələsi regionlarla yanaşı, Bakı şəhərində də təşkil olunub.

Müsabiqənin keçirilməsinin məqsədi kamança ifaçılığının təbliği, bu ixtisas üzrə musiqi təhsilinin inkişaf etdirilməsi, istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların dəstəklənməsi, habelə milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, məşhur kamança ifaçısı Habil Əliyevin xatirəsinin əbədiləşdirilməsidir.





Ə.Bədəlbəyli adına 23 nömrəli onbirillik Musiqi məktəbində Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi tərəfindən keçirilən müsabiqənin I seçim mərhələsinə 24 nəfər iştirakçı qatılıb. Bu mərhələdə fərqlənənlər müsabiqənin II mərhələsində qabiliyyətlərini göstərəcəklər.

# "Ömrün sənət naxışları"

## Xalq artisti Rafiq Əzimov haqqında sənədli televiziya filmi



"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti (QSC) "Ömrün sənət naxışları" sənədli televiziya filminin istehsalını başa çatdırıb. Film Dövlət Akademik Milli Dram Teatrının aktyoru, Xalq artisti Rafiq Əzimovun həyat və yaradıcılığından bəhs edir. Ekran işində onun iştirak etdiyi tamaşalardan və çəkildiyi filmlərdən fraqmentlər də yer alıb.

Filmin ssenari müəllifi Salar Aslanov, rejissoru Sənan Sultanov, operatoru Elşən Bədəlovdur.

# “İslam mədəniyyəti paytaxtı”na infotur təşkil edilib

## “Naxçıvan bütün bu gözəllikləri ilə qarşıdakı illərdə daha çox turist qəbul edəcək”

**2018-ci ilin “İslam mədəniyyəti paytaxtı” olan Naxçıvanın turizm potensialını, mədəni irsini tanıtmaq məqsədilə aprelin 8-dən 10-dək qədim diyara infotur təşkil edilib. “Nəqşicahan Holdinq” tərəfindən “Naxçıvanı tanıyaq və tanıdaq” layihəsi üzrə keçirilən infotura 12 ölkənin və Azərbaycanın müxtəlif turizm şirkətlərinin ümumilikdə 200-dək sahibkar və turizm mütəxəssisi qatılıb.**



Səfərin ilk günü “Duzdağ” hotelində muxtar respublikanın Mədəniyyət və Turizm Nazirliyinin, yerli turizm nümayəndələrinin iştirakı ilə görüş keçirilib.

Sonra qonaqlar Naxçıvan şəhərindəki “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Kətə” festivalında iştirak ediblər.

Ardınca Culfa rayonunun ərazisindəki “Əlincəqala” tarixi abidəsi və muzeyi ziyarət edilib. Məlumat verilib ki, tarixi abidə və muzey muxtar respublika Ali Məclisi sədrinin 2014-cü il 11 fevral tarixli sərəncamına əsasən bərpa olunub. Tur iştirakçıları “Xan sarayı” tarix-memarlıq, Möminə xatın və Açıq səma altında muzey kompleksi ilə də tanış olub, bu tarixi abidələr haqqında ətraflı məlumat alıblar. Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında açıq səma altında nümayiş etdirilən daş abidələr qonaqlarda xoş təəssürat yaradıb. Bildirilib ki, Azərbaycan milli memarlığının möhtəşəm abidəsi olan Möminə xatın türbəsi Azərbaycanın Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin göstərişi ilə 1186-cı ildə memar Əcəmi Naxçıvani tərəfindən inşa olunub.

Xan sarayında infotur iştirakçılarına məlumat verilib ki, 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Duzdağ Fizioterapiya Mərkəzi, Uzunoba istirahət kompleksi, dəniz səviyyəsindən 2 min 450 metr yüksəklikdə yerləşən Batabat yaylağı, məşhur üzən ada, Ağbulaq istirahət mərkəzi ilə tanışlıq da yaddaqalan olub.

Sonra Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Naxçıvanın turizm potensialı” adlı tanıtım filminə baxış keçirilib.

Təəssüratlarını bölüşən qonaqlar Naxçıvanın geniş turizm potensialı olduğunu və bu sahədə əməkdaşlığın vacibliyini vurğulayıblar.

İran İslam Respublikasından Araş Gəraylı bildirib ki, qonşu ölkədən Naxçıvana gələn turistlərin sayı kifayət qədərdir: “Biz də çalışacağıq ki, bundan sonra da muxtar respublikaya daha çox turistin gəlməsinə öz töhfəmizi verək”.

Türkiyədən gələn Serpil Onal turun təşkilatçılarına minnətdarlığını bildirib: “Bu, Naxçıvana ilk gəlişim deyil. Lakin turizm sahəsi üzrə mütəxəssis kimi ilk dəfədir ki, belə böyük layihədə iştirak edirəm. Muxtar respublikanın özünəməxsus gözəlliyi, qonaqpərvər insanları və hər şeydən öncə, səliqə-sahmanı ilə seçilən şəhər və kəndləri var. Naxçıvan bütün bu gözəllikləri ilə qarşıdakı illərdə daha çox turist qəbul edəcək”.



# “Azərbaycan kinosu və kino inciləri” mövzusunda dəyirmi masa

Qax MKS-nin təşkilatçılığı ilə aktyor İsmayıl Dağıstanlının xatirə muzeyində Azərbaycan kinosunun 120 illiyi və görkəmli aktyor Həsənağa Turabovun anadan olmasının 80 illik yubileyi münasibətilə “Azərbaycan kinosu və kino inciləri” adlı dəyirmi masa keçirilib.

Tədbirdən öncə muzeydə İsmayıl Dağıstanlının həyat və yaradıcılığını əks etdirən eksponatlara, “Azərbaycan kinosu 120” və “Əfsanəvi Həsənağa Turabov” adlı sərgilərə baxış olub.

Qax MKS-nin direktor müavini A.Əfəndiyevanın apardığı tədbiri muzeyin direktoru A.Zehirov açıb. MKS-nin direktoru G.Əhmədova və digər çıxış edənlər Azərbaycanın kino tarixindən, ölməz aktyor Həsənağa Turabovun sənətkarlıq məziyyətindən söz açıblar. Mövzuya dair məruzələr dinlənilib, videoçarxlar nümayiş olunub.

# Qəbələ Tarix-bədii qoruğunun yaranmasından 40 il keçir

**Qəbələ Dövlət tarix-bədii qoruğunun yaranmasından 40 il ötür. Qədim Azərbaycan dövlətinin - Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələ şəhərinin yerləşdiyi bu ərazidə 1978-ci ildə qoruğun yaradılması ulu öndər Heydər Əliyevin tarixi irsə diqqət və qayğısının daha bir bariz nümunəsi idi.**



Azərbaycan müstəqilliyini qazandıqdan sonra, bütün sahələrdə olduğu kimi, ulu öndərin bu sahədə siyasəti də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının mədəni irsimizin inkişafı, qorunub saxlanılması və tanıdılması ilə bağlı sərəncam və tapşırıqlarının icrası Qəbələnin tarixinin öyrənilməsində də özünü müsbət şəkildə göstərir. Son 15 ildə Qəbələ ərazisində gedən arxeoloji tədqiqat işləri, qazıntıların üzərinin konservasiyası, tarixi abidələrin restavrasiyası, qoruq ərazisindən keçən yola asfalt örtük çəkilməsi, Qəbələ Arxeoloji Mərkəzinin açılışı bunun bariz nümunəsidir.

Qoruq işçiləri də mədəni irsimizin qorunub saxlanılması və tanıdılması işinə öz töhfələrini verirlər. Ötən illərdə qoruğa on minlərlə turist gəlib, Azərbaycanın keçmişi ilə maraqlanıb, tarixən əhalinin burada toplerantlıq şəraitində yaşadıqlarının öyrəniblər. Bu gün də qoruğa dünyanın bir çox yerlərindən turistlər gəlir və onlara Qədim Qafqaz Albaniyası haqqında geniş məlumat verilir.

Həmçinin respublikamızın regionlarından çoxlu sayda turist, məktəbli və tələbələr buraya gəlir, ərazi ilə tanış olurlar. Bu yaxınlarda “Ölkəmizi tanıyaq” turunun iştirakçıları Qəbələ Tarix-bədii qoruğunu ziyarət ediblər.

# Qərb bölgəsində yaşayan pravoslavlar Pasxa bayramını qeyd ediblər



Tolerantlıq məkanı sayılan Azərbaycanda xristian icması müqəddəs Pasxa bayramını (İsa Məsihin çarmıxa çəkilməsi və dirilməsi) qeyd edib.

Respublikamızın qərb bölgəsində yaşayan pravoslavlar bayram mərasimini Gəncədəki Aleksandr Nevski kilsəsində keçiriblər.

Şamlar yandırılıb, dualar oxunub, dini ayinlər icra olunub. Dini ayinlərin icrası başa çatdıqdan sonra pravoslavlar Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən təşkil olunan bayram süfrəsi ətrafında bir araya gəliblər.

Bayram süfrəsinə xüsusi hazırlanan təamların düzülməsi də Pasxanın əsas özəlliklərindən biridir.

# Aprel döyüşləri şəhidlərinin xatirəsi anılıb

Qazax rayon E.Hüseynov adına Mərkəzi kitabxanası S.Vurğun adına parkda Aprel döyüşlərinin (2016) ildönümünə həsr olunmuş səyyar kitabxana xidməti təşkil edib.

“Aprel döyüşləri bizim şanlı qələbəmizdir” devizi altında keçirilən tədbirdə kitablar, erməni işğalçıları ilə döyüşlərdə qəhrəmancasına şəhid olan kapitan Mühüd Qurban oğlu Orucov, baş leytenant Elvin Məmməd oğlu Namazov və əsgər Orxan Məhəmməd oğlu Əliyevin fotoşəkilləri nümayiş olunub. Kitabxana işçiləri tədbir iştirakçılarına Aprel döyüşləri, şəhidlər haqqında məlumat veriblər.

Aprel döyüşlərinin ildönümü ilə əlaqədar Qazax rayon MKS-nin təşkilatçılığı ilə Qazaxbəyli kənd, Yuxarı Salahlı kənd 1 və 2 saylı, şəhər 2 saylı, Cəfərli kənd kitabxana filialları da anım tədbirləri keçiriblər.

**Səhnə arxası**

**Tamaşa boyu pərdələr bir neçə dəfə açılıb-bağlanır, dekorasiyalar dəyişir, amma ilk gördüyümüz arxa pərdə, ya da arxa planda qurulmuş dekorasiya tamaşanın sonunadək qalır. Əslində salondan baxanda tamaşa barədə ilk təəssüratı oyadan da elə həmin arxa plandır. Səhnədə gördüklərimizin əziyyətini çəkənlərin çoxu elə həmin pərdənin arxasında qalır...**

# Təcrübə ilə başlayan sənət sevgisi

### "İstehsalat təcrübəsi keçmək üçün bura göndərdilər. Dekorasiya barədə anlayışım yox idi. Nə tapşırdılar, yerinə yetirdim, mehriban münasibət gördüm. Elə o vaxtdan teatrdayam"



"Səhnə arxası"nın budəfəki qonağı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının icraçı rəssamı, Əməkdar mədəniyyət işçisi Tehran Babayevdir.

Teatrın həyətindən, sonra da səhnənin içindən arxaya keçərək, dar pilləkənlərlə rəssamlıq sexinə qalxırıq. Dar dəhlizdən işıqlı, geniş məkana keçəndə indicə hiss etdiyin təzad səni bir an çaşdırır. Amma nəzərlərin döşəməyə zillənincə... Döşəməyə sərilmiş iri xalını xatırladan qırmızı-qara rəngli, aşağı haşiyəsi qızılı şəbəkə naxışlı pərdə diqqəti o qədər cəlb edir ki, darısqallıq və genişlik təzadını unudursan.

Söhbətimizə elə bu pərdə ilə başlayırıq. Daha doğrusu, Tehran müəllim indiyədək döşəmədə bu ölçüdə pərdə görmədiyimdən yaranan təəccübümü aradan qaldırır:

- "Cavad xan" baletinin pərdəsidir. Yəni tamaşa vaxtı ən arxada asılacaq və tamaşa bitənədək dəyişməyəcək pərdədir.

**- Premyeraya xeyli var, əsas pərdə isə artıq hazırdır...**

- Özündən demək olmasın, indiyədək heç bir işimdə ləngimə olmayıb. Teatrda nəyi mənə tapşırıblarsa, çalışmışam ki, deyilən müddətdən bir neçə gün əvvəl təhvil verim.

Söhbətə başlayırıq. Amma bir gözüm elə pərdədədir...

**- Tehran müəllim, çoxdan teatrdasınız? Bu sevgi sizdə necə yaranıb? Necə olsa, dekorçu, icraçı rəssam işi kölgədə qalan sahədir...**

- Düzü, məni teatra sevgi gətirməyib. Bakıxanov qəsəbəsində indiki 12 saylı peşə liseyində reklam işləri üzrə tərtibatçı rəssam ixtisası üzrə oxuyurdum. İstehsalat təcrübəsi keçmək üçün bura göndərdilər. Heç teatr rəssamlığı, dekorasiya barədə anlayışım yox idi. O zaman Xalq rəssamı Əyyub Fətəliyev teatrın baş rəssamı idi. Sexdə nə tapşırdılar, yerinə yetirdim, mehriban münasibət gördüm. Məktəbi bitirəndə də təklif etdilər ki, iş var, istəyirsən, qal, işlə. Elə o vaxtdan düz 26 ildir ki, teatrdayam...

**- Bu illər ərzində neçə tamaşa işləmisiniz?**

- Düzü, saymamışam. Amma hər mövsüm iki-üç tamaşa səhnəyə qoyulur. İldə iki tamaşa desək, sayı əllini keçib.

**- Bəs özünüzü quruluşçu rəssam kimi, necə, sınamısınız?**

- İlk müstəqil işim uşaqlar üçün "Cırtdan" operası olub, bu mövsümdə də "Xanəndənin taleyi" operasına quruluş verdim. 26 ildə teatrda tamaşaya qoyulan bütün əsərlərin səhnə həllində zəhmətim var. Heç vaxt "bilirəm" deyib irəli çıxmamışam. Həmişə böyüklərdən, özümdən daha təcrübəli dekorçulardan, rəssamlardan öyrənmişəm. Rəssam rəssamdan bəhrələnməlidir, bu, oğurluq deyil. Sadəcə, kiminsə işini, yanaşma tərzini görürsən, diqqət yetirirsən, özündə də hansısa ideya yaranır.

**- "Bilirəm" demişkən, nə əcəb, təhsilinizi davam etdirmədiniz?**

- Fikirləşdim ki, sənət yolumu seçmişəm, teatrdan ayrılmayacağam. İndi də elə dövrdəyik ki, diplom heç nəyi həll etmir, bütün sahələrdə mütəxəssisləri təzədən imtahan edib işə götürürlər. Bir də ki 26 ildə teatra gəlib işi bacarmadığına görə tələsik uzaqlaşan o qədər diplomlu adam görmüşəm ki. Əsas məsələ işini sevmək, bacarmaq, öyrənməkdən yorulmamaq, səbirli və məsuliyyətli olmaqdır.

**- Elə isə, gəlin, işdən danışaq. Bu pərdənin eskizi hansı ölçüdədir?**

- Rəssam adətən pərdə eskizini 40x60 sm ölçüsündə işləyir.

**- Bəs teatrın səhnə ölçüləri neçədir?**

- Adətən eskizdəki 5 sm 1 metrə bərabər tutulur. Bizim səhnənin ölçüsü 8x12 metrdir. Bəzən tamaşadan asılı olaraq, ölçünü 8x14 metr də götürürük.

**- Tehran müəllim, quruluşçu rəssam ilə icraçı rəssamın işgüzar münasibəti necə nizamlanır? Quruluşçunun ürəyindən çox şey keçə bilər, səhnə təcəssümünə gələndəsə vəziyyət dəyişər. Üstəlik, eskizdə çox incə görünən detal natural ölçüdə özünü doğrultmaya bilər...**

- Haqlısınız. Bu tamaşaya Xalq rəssamı Rafis İsmayılov quruluş verir. Tez-tez teatra gəlir, məsləhət verir. Mən də eskizdən böyük işə keçərkən anlaşılmazlıq yarananda Rafis müəllimi çağırıram. Bədii şurada təsdiqlənmiş eskizdə özbaşına heç nəyi dəyişə bilmərəm. Amma həmişə işdə ortaq məxrəcə gəlmək mümkündür. Quruluşçu rəssamla məsləhətləşib bəzən düzəliş etmək lazım gəlir. Pərdədəki naxışın trafaretini MDF materialından özüm çəkib kəsmişəm. Bir naxış 12-13 dəfə təkrarlananda əl titrəyə, sapıntı ola bilər, trafaret isə həm işi asanlaşdırır, həm də səliqəli görünüş verir. Elə xırdalıqlar var ki, onu eskizdə heç vaxt görmək mümkün deyil. Sadəcə, trafareti düzəldəndə onu nəzərə almışıq...

**- Konkret olaraq, bu pərdə neçə günə başa gəlib? Yəqin ki, tək işləməmisiniz...**

- Əlbəttə, adi bezi belə bir pərdəyə çevirmək tək adamın işi deyil. Amma parçanın diaqonalını düzəltmək, sonradan dartılıb əyilməməsi üçün ilk mərhələni mütləq özüm edirəm. Bu pərdənin hasilə gəlməsi - tikilişi, qruntlanması, materialının bərkidilməsi, rənglənməsi, naxışlarının salınıb qurulması - 15 gün çəkib.

**- Səhnə tərtibatında ən ağır iş hansıdır?**

- Arxa pərdənin hazırlanması. Düzdür, elə dekorasiya var ki, 10 günə hazır olur, o biri 2 aya. Əgər pərdənin dekorunda applikasiyadan istifadə edilibsə, ona xeyli vaxt gedir. Çünki yapışdırılan, qabarıq forma vermək üçün istifadə edilən materialın qurumağını günlərlə gözləmək lazımdır ki, növbəti prosesə keçəsən. Məsələn, papye-maşedən (yaş kağız) detal hazırlamaq lazım gəlir. Ən yaxşı, etibarlı papye-maşe 12 qat olmalıdır. Və həmin qatları bir-bir yapışdırıb tam qurumağını gözləməlisən. Onu da teatrda işləyə-işləyə öyrənmişəm. 26 il əvvəl teatra işə gələndə mənə kağızdan nəyinsə düzəldilməsi qəribə görünürdü.

**- Deyəsən, bu qabiliyyət sizdə irsidir...**

- Ana nənəm Nazxanımın gözəl əl qabiliyyəti var idi. Bizə gələndə mənə kağızdan müxtəlif naxışlar kəsdirər, onları güləbətin tikməyə salardı... Hər iki oğlum yaxşı rəsm çəkir. Böyüyü tələbədir, mühəndis olacaq, balaca hələ məktəblidir. Ürəkləri istəsə, rəssamlığı da davam etdirərlər, seçim özlərinindir.

**- Rəssamlıq təkcə teatrla məhdudlaşmır...**

- İndiyədək fərdi sərgim olmasa da, müxtəlif tematik və qrup sərgilərdə iştirak etmişəm. Hətta mükafatlar da almışam. Bilirsiniz, insanın həvəsi, qabiliyyəti varsa, o, mütləq çalışacaq, nəsə çəkəcək. Teatrdakı işimi bitirəndən sonra həvəsim gələndə oturub işləyirəm, müxtəlif texnikalarda suvenirlər düzəldirəm, şəkil çəkirəm.

**Gülcahan Mirməmməd**

# Universitetdə xalça sənətinə həsr olunmuş seminar



Aprelin 9-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Azərbaycan xalça sənəti" adlı elmi seminar keçirilib. Universitetin "Təsviri incəsənət və OTM" kafedrasının təşkilatçılığı ilə reallaşan seminarda məruzəçi qismində sənətşünaslıq üzrə elmlər doktoru, professor, Əməkdar incəsənət xadimi Kübra Əliyeva və xalçaçı rəssam, sənətşünas, ADPU-nun müəllimi Arzu Zeynalova iştirak ediblər.

Seminarda xalq sənəti olan toxuculuq, onun meydana gəlməsinin səbəbləri və inkişaf dövrü barədə əhatəli məlumat verilib. Qeyd edilib ki, xalça sənətimiz dövlətin diqqət və qayğısı sayəsində çiçəklənmə dövrünü yaşayır. Xalça Muzeyinin yeni binası, milli xalçaçılıq sənətinin UNESCO-nun siyahısına daxil edilməsi, bölgələrdə xalça fabriklərinin açılması, "Azərbaycan xalçaçıları günü"nün (5 may) təsis olunması buna bariz nümunədir.

Bildirilib ki, ADPU-nun "Təsviri incəsənət və OTM" kafedrasında xalça sənəti tədris olunur və gələcəyin müəllimləri bu sənətlə müəyyən səviyyədə tanışlıq imkanı əldə etmiş olur. Orta məktəb şagirdlərinin də xalça sənətini öyrənmələri üçün xüsusi məşğələlərin keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

# Məktəblilər rəqs çempionatında uğur qazanıblar

Moskvada keçirilən milli rəqslər üzrə Avropa çempionatında ölkəmiz də təmsil olunub. Çempionatda Bakı şəhəri 145 nömrəli tam orta məktəbin şagirdi Emilya Məmmədova, 236 nömrəli məktəbin şagirdi Zəhra Quliyeva, 283 nömrəli məktəbin şagirdi Ayla Güləlizadə, 160 nömrəli Klassik gimnaziyanın şagirdləri Nərgiz Məmmədova, Nuray Hüseynli, 1 nömrəli məktəbdən Fidan Əzizova, 157 nömrəli məktəbin yetirməsi Aysu Nəsirli, 164 nömrəli məktəbin şagirdi Aylin Əliyeva, 189-190 nömrəli məktəbdən Xədicə İsrafilova, 20 nömrəli məktəb-liseyin şagirdləri Selin Hüseynli və Aylin Hüseynli uğurla iştirak ediblər.



53 ölkənin qatıldığı yarışmada təmsilçilərimiz ümumilikdə ilk beşlikdə yer alıblar.

# Türk dünyasının ortaq maraqları naminə əməkdaşlıq

**Prezident seçkilərini izləmək üçün ölkəmizə gəlmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) katibliyinin müşahidəçi heyəti Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda olub. Heyətə Türk Şurası baş katibinin müavini Ömər Kocaman başçılıq edib.**

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda Türk Şurasının heyəti ilə görüş



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qonaqlara qurumun fəaliyyəti barədə məlumat verib, Türk dünyasının ortaq mədəni dəyərlərinin beynəlxalq miqyasda təbliğinin təmin olunması istiqamətində icra olunan müxtəlif layihələr və tədbirlərdən söz açıb.

Görüşdə iki qurum arasında əməkdaşlığın möhkəmləndirilməsinin Türk dünyası üçün əhəmiyyəti vurğulanıb. Eyni zamanda türkdilli qurumların ümumtürk mədəniyyətinin qorunub gələcək nəsillərə ötürülməsi istiqamətində təşkilatların daim bir-birinə dəstək olduğu ifadə edilib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sentyabrda Bişkekdə keçirilməsi planlaşdırılan zirvə toplantısında müzakirəyə çıxarılacaq məsələlər haqqında fikir mübadiləsi aparılıb. Həmçinin qurumlar arasında əlaqələrin genişləndirilməsi üçün il ərzində birgə təşkil olunacaq tədbirlər barədə danışılıb.

# Yeni metodiki vəsaitlər işıq üzü görüb

**Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzdə müxtəlif mövzularda metodiki vəsaitlərin hazırlanması davam etdirilir. İndiyədək 60-dan çox metodiki vəsait hazırlanaraq işıq üzü görüb. Bu dəfə yeddi adda metodiki vəsait çapdan çıxıb.**



"Turizm biznesinin avtomatlaşdırılmasında informasiya-kommunikasiya texnologiyalarının rolu" adlı tövsiyədə müasir dövrdə İKT-nin cəmiyyətin inkişafına təsirindən bəhs edilir.

"Sumqayıt Şəhərinin Tarixi Muzeyinin nümunəvi iş təcrübəsi əsasında" hazırlanmış metodiki tövsiyə muzeylərin fəaliyyət istiqamətinə həsr edilib.

Digər vəsait "Mədəniyyət müəssisələri üçün təqdimatların hazırlanmasının müasir üsul və metodları" adlanır.

"Özfəaliyyət dərnəkləri üçün musiqi tərtibatı işinin əsasları" adlı metodiki tövsiyədə musiqi tərtibatının hazırlanmasından, rejissor və bəstəkar işinin birgə aparılmasından bəhs olunur.

"Klub işinin təşkili" adlı metodiki tövsiyədə klub işinin təşkilində informasiya-maarifçilik fəaliyyətinin rolu, klub işinin forma və metodları göstərilib.

Bundan əlavə, "Şəhər (rayon) mədəniyyət mərkəzləri (filialları ilə birlikdə), digər mədəniyyət evləri və klubların yaradılmaları üçün nümunəvi iş planı" və klub işi, dərnəklər, həvəskar birliklər və digər maraq klublarının yaradılması qaydalarından bəhs edən metodiki tövsiyələr nəşr olunub.

Metodiki vəsaitlərin müvafiq mədəniyyət müəssisələrinə göndərilməsi, yerlərdə təqdimatları nəzərdə tutulub. Vəsaitlərlə mərkəzin saytında (www.memm.az) tanış olmaq olar.

# Səs həm də mədəniyyətdir...

**1990-cı ildə Braziliyada təsis edilən 16 aprel - Dünya səs günü bir sıra ölkələrdə qeyd olunur. Bir neçə ildir ki, Azərbaycan da bu sıraya qoşulub.**

## 16 aprel Dünya səs günüdür

Beynəlxalq Səs Cəmiyyətinin Azərbaycan üzrə milli koordinatoru, foniatr, tibb üzrə fəlsəfə doktoru Ramil Həşimli bildirir ki, bu günün keçirilməsinin əsas məqsədi səsin qorunması, insanlar arasında maarifləndirmə aparmaqla səs problemlərinə diqqət çəkmək, səsin gigiyenası haqqında ictimaiyyətə məlumat çatdırmaqdır. Onun sözlərinə görə, əvvəl Amerikaya, daha sonra Avropa və Asiya ölkələrinə yayılan bu kampaniya 2001-ci ildən etibarən geniş qeyd edilir, bu günlə bağlı çoxsaylı tədbirlər reallaşır. Hər bir ölkədə təşkilatın milli koordinatoru var. Hazırda dünya üzrə 60-a yaxın milli koordinatorluq fəaliyyət göstərir.

Dünyanın səs mütəxəssislərinin iştirakı ilə www.world-voice-day.org adlı sayt da yaradılıb. Bu sayt vasitəsilə müxtəlif ölkələrdə Səs günü ilə əlaqədar təşkil ediləcək tədbirlər haqqında məlumatlar yerləşdirilir. Bu tədbirlər sırasında konsertlər, seminarlar, pulsuz səs müayinələri, radio-televiziya proqramları yer alır. Bütün bu tədbirlər də sayta yerləşdirilir və insanlar daha çox məlumat almaq imkanı qazanırlar.

Həmsöhbətim qeyd edir ki, bu il Səs günü ilə əlaqədar dünya üzrə 380-dək tədbir planlaşdırılıb: "Biz ilk dəfə 2014-cü ildə bir seminarla fəaliyyətə başladıq. Daha sonrakı illərdə Azərbaycan Milli Konservatoriyası ilə birgə konfrans təşkil etdik. İldən-ilə bu tədbirlərin sırası genişlənir, insanların marağı artır və daha çox məlumatlanırlar. Səs günü ilə əlaqədar bu il pulsuz müayinə, Azərbaycan radiosunda veriliş, o cümlədən Xalq artisti Fidan Hacıyevanın vokal məktəbində, musiqi məktəblərində müəllimlər və şagirdlər üçün "Səsimizi qoruyaq" adlı seminarlar təşkil ediləcək".




Mütəxəssis səsin qorunması, səs gigiyenasına əməl edilməsinin vacib olduğunu vurğulayır: "Səs tellərimiz gün ərzində ən çox istifadə edilən orqanlarımızdan biridir. İnsanlar bəzən buna fikir vermir, əhəmiyyətini o qədər də dərk etmirlər. Səs deyəndə ilk olaraq yada düşən insanlar müğənnilərdir. Bu gün səsini qoruyan sənət adamlarımız çox azdır. Yəni onlar öz səslərindən düzgün istifadədən xəbərsizdirlər. İnsanlar çox vaxt səsi sırf tibb sahəsi ilə əlaqələndirsələr də, o həm də bir mədəniyyətdir. Maraqlıdır ki, ilk dəfə səs telini müalicə edən insan da ispaniyalı musiqi müəllimi, vokal ifaçısı olub. İncəsənət sahəsi, xüsusilə vokal, aktyorluq və digər sahələrlə məşğul olanlara nitq mədəniyyəti, səhnə danışığı dərsləri ilə bərabər səslə bağlı dərslərin də keçirilməsi labüd məsələdir. Bir sıra Avropa ölkələrində, eləcə də Türkiyədə konservatoriyalarda səs dərsləri keçirilir. Biz səsimizlə, səs tellərimizlə bağlı məlumata malik olmalıyıq ki, ondan düzgün istifadə edək".

**Lalə Azəri**

# "Bumeranq 2018" ilə ilk dəfə Qazaxıstanda

Tanınmış azərbaycanlı müğənni və bəstəkar Emin ilk dəfə Qazaxıstanda konsert verəcək. O, "Bumeranq 2018" adlı solo konsert proqramı ilə mayın 11-də Astanada "Qazaxıstan" mərkəzi konsert zalında, 12-də isə Almatıda Respublika Sarayında çıxış edəcək.

Konsert proqramına müğənninin sevilən məşhur hitləri ilə yanaşı, yeni kompozisiyaları da daxildir. Konsertdə ifaçını öz orkestri müşayiət edəcək.

Yeni tura "Bumeranq 2018" adı təsadüfi seçilməyib. Emin bu proqramla indiyədək olmadığı ölkələrə getməyi planlaşdırır.

# Balacalar üçün ustad dərsi

Aprelin 15-də "YARAT" Müasir İncəsənət Mərkəzi balacaları vaxtlarını səmərəli keçirmək üçün ailəvi ustad dərsinə dəvət edir. Budəfəki mövzu 12 aprel - Dünya aviasiya və kosmonavtika gününə həsr olunub. Dərs zamanı balacalar raket düzəltməklə yanaşı, kosmonavtika haqqında da bir çox maraqlı məlumatlar əldə edəcəklər.



# Fırça ustalarının növbəti pleneri




"Azərbaycan İncəsənət Konsulluğu" (Arts Council Azerbaijan) təşkilatının dəstəyi ilə keçiriləcək.

Plenerdə gənc rəssamlarla yanaşı, yaşlı nəsli təmsil edən fırça ustaları da iştirak edəcəklər. Plener sənətkarların təkmilləşdirilməsi, istedadlı gənclərin və yaradıcı ziyalıların dəstəklənməsi məqsədi daşıyır.

"Art Villa" qalereyasında açıq səma altında növbəti plener "Azərbaycanım" adı altında gerçəkləşəcək. Sayca 18-ci plener aprelin 29-da Gənclər Şəbəkəsinin təşəbbüsü, Mədəniyyət və Turizm Nazirliyi və

# Tibbi turizm üzrə Alman-Azərbaycan biznes forumu keçirilib

**Bakıda tibbi turizm üzrə Alman-Azərbaycan biznes forumu keçirilib. Tədbirdə iki ölkənin mütəxəssisləri, turizm təmsilçiləri iştirak ediblər.**





Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann məlumat verib ki, foruma Almaniyanın tibbi turizm üzrə püxtələşmiş mütəxəssisləri qatılıb.

Tədbirdə çıxış edən Almaniyanın Azərbaycandakı səfirliyinin iqtisadi attaşesi Heyke Möckel deyib ki, iki ölkə arasında bu sahədə əməkdaşlıq üçün çox geniş imkanlar var.

Alman-Azərbaycan Xarici Ticarət Palatası İdarə heyətinin üzvü Malik Kərimov son 25 ildə Almaniyanın Azərbaycan səhiyyəsinə çox böyük dəstək verdiyini bildirib.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Ceyhun Məmmədov Azərbaycan səhiyyə sahəsində aparılan islahatlar, azərbaycanlı mütəxəssislər tərəfindən həyata keçirilən mürəkkəb cərrahiyyə əməliyyatları barədə danışıb.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyev isə tibbi turizm üzrə Almaniya və Azərbaycan arasında əməkdaşlıq imkanları barədə danışıb.

Tədbirdə qonaq heyət təqdimatlarla çıxış edib. Forum işgüzar görüşlərlə davam edib.

## Formula 1 yarışmasına hazırlıq yekunlaşmaq üzrədir

**27-29 aprel tarixində Bakıda üçüncü dəfə keçiriləcək Formula 1 Azərbaycan Qran-prisinə hazırlıq işləri yekunlaşmaq üzrədir.**




Yarışmanı canlı izləmək üçün bilet alan tamaşaçılar şəhərin kassalarında vauçerlərini biletlərin əsli ilə dəyişdirə bilərlər. Bilet dəyişdirməyə gələn tamaşaçılar özləri ilə şəxsiyyət vəsiqələrini və çap olunmuş vauçerlərini gətirməlidirlər. Vauçerləri yalnız onların üzərində adları əks olunan şəxslər dəyişdirə bilərlər.

Onlayn qaydada alınan vauçerlər Formula 1 Azərbaycan Qran-prisi başlayanadək müvafiq kassalarda biletlərin əsli ilə dəyişdirilməlidir. Çünki vauçerlərlə yarış məkanına daxil olmağa icazə verilməyəcək.

Formula 1 izləyiciləri üçün maraqlı əyləncə və konsert proqramları da hazırlanıb.

Bütün bilet sahibləri aprelin 27-29-da axşam saatlarında hər gün biri səhnəyə çıxacaq Jamiroquai, Kristina Aqilera və Dua Lipanın konsertlərində, həmçinin bu konsertlərin ardınca DJ-lərin iştirakı ilə baş tutacaq əyləncəli gecə proqramlarında ödənişsiz iştirak edə biləcəklər.

Məşhur müğənni Kristina Aqilera aprelin 28-də Formula 1 həvəskarları üçün konsert proqramı ilə çıxış edəcək. Ötən illərdəkindən fərqli olaraq, əsas konsert proqramları "Baku Crystal Hall"da baş tutacaq.




## Bakı səyahətçilər üçün cəlbedici istiqamətdir

Birləşmiş Ərəb Əmirliklərinin "Al Khaleej" qəzetində Azərbaycanın turizm cəlbediciliyindən bəhs edən "Bakı - turist və səyahətçilər üçün cəlbedici istiqamətdir" sərlövhəli məqalə dərc olunub.

Məqalədə dünyada turizm populyarlığı getdikcə daha da artmaqda olan Bakının görməli yerləri, qədim tarixi və zəngin mədəni-tarixi abidələri barədə geniş məlumat verilir. Qeyd olunur ki, məşhur turizm istiqaməti olan Azərbaycan turistlərə ölkə ilə yaxından tanış olmaq üçün maraqlı tədbirlər və marşrutlar təklif edir.

Məqalədə Xəzərin sahilində, paytaxt Bakıda UNESCO-nun Dünya irsi siyahısına daxil edilmiş Şirvanşahlar sarayı və Qız qalasının yerləşdiyi İçərişəhər, eləcə də Bakıdan 60 km məsafədə yerləşən Qobustan qoruğundakı minilliklərlə yaşı olan qayaüstü rəsmlərdən bəhs olunur. Həmçinin səyahətçilər üçün böyük maraq kəsb edən Azərbaycanın Xalça Muzeyi, Yanardağ təbiət abidəsi, palçıq vulkanları və ölkədə hər il böyük təmtəraqla keçirilən Novruz bayramı şənliklərindən söhbət açılır.

## Gürcüstana üç ayda gələn turist sayı 15,5 faiz artıb

Gürcüstan 2018-ci ilin birinci rübündə xarici turizmdən 561 milyon dollar gəlir əldə edib. Gürcüstan Milli Bankı xəbər verir ki, bu məbləğ ötən ilin analoji dövrü ilə müqayisədə 28,6% çoxdur. Hesabat dövründə xarici turizmdən ən çox gəlir (237 milyon dollar) mart ayının payına düşüb.

Qeyd edək ki, yanvar-mart aylarında qonşu ölkəyə səfər etmiş əcnəbi ziyarətçilərin sayı illik müqayisədə 15,5% artaraq 1 milyon 463 min nəfər təşkil edib.



## Dubayda istehlakçı hüquqlarının "ağıllı" müdafiəsi

Dubayda turistlər tərəfindən də böyük maraqla qarşılanan istehlakçı hüquqlarının "ağıllı" müdafiəsi xidməti istifadəyə verilib. Alış-veriş edənlər Android və İOS əməliyyat sistemli mobil telefonlara müvafiq əlavəni yükləməklə xidmətdən istifadə edə bilərlər.

Dubay İqtisadi İnkişaf Departamentinin yaydığı məlumata görə, yeni xidmət gecə-gündüz şikayətləri fasiləsiz qəbul edir və tam məlumatın toplanılması üçün zəruri suallar verir. Bir neçə dəqiqə ərzində istehlakçı şöbədən şikayətin təfsilatının və təlimatın göstərildiyi məktub alır və bundan sonra satıcıya məktubu təqdim edə bilər. Şirkət və ya satıcı bu cür məktubu aldığı gündən başlayaraq yeddi gün ərzində zəruri tədbir görməlidir. Satıcı məktubdakı tələblərə əməl etməsə, istehlakçı bu barədə müvafiq xidmətə təkrar məlumat verə bilər və şöbə satıcı barədə zəruri tədbir görə bilər, o cümlədən cərimə sanksiyaları tətbiq edə bilər.

## İtaliyaya yalnız səyahətə getmirlər...

### Ölkə ildə 200 minə yaxın əcnəbiyə vətəndaşlıq verir

2016-cı ildə təxminən 1 milyon nəfər Avropa İttifaqı (Aİ) ölkələrinin vətəndaşlığını qəbul edib. Onların arasında İtaliya ən çox vətəndaşlıq verən ölkə olub.

2016-cı ildə 201 min 591 nəfər İtaliya vətəndaşlığı alıb. Bu göstərici ilə İtaliya İspaniyanı (150 min 944 nəfər) geridə qoyub.

İtaliya vətəndaşlığı alanların 18,3 faizi Albaniyadan, 17,5 faizi Mərakeşdən, 6,4 faizi isə Rumıniyadan olublar. 2016-cı ildə ümumilikdə 995 min nəfər Avropa İttifaqına üzv ölkələrin vətəndaşlığını qəbul edib. Qeyd edək ki, bu göstərici 2015-ci ildə 841 min, 2014-cü ildə isə 889 min nəfər təşkil edib.

## Uzaq Çindən Mərakeşə...

### Hədəf ildə 500 min turistdir

Şimali Afrikanın turistik ölkələrindən olan Mərakeş Krallığında turizm sektorunda sürətli artım müşahidə olunur. 2018-ci ilin ilk iki ayında Mərakeşə 1,5 milyon turist gəlib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 12 faiz çoxdur.

Mərakeşi ziyarət edənlər arasında ilk yeri Fransa vətəndaşları tuturlar. Onlar Afrika ölkəsinə gələn turistlərin 11 faizini təşkil ediblər. İkinci yerdə isə İspaniya vətəndaşlarıdır. Çinli turistlərin sayı isə sürətlə artmaqdadır. 2017-ci ildə Mərakeşə gələn Çin turistlərinin sayı 100 min nəfər təşkil edib. Mərakeş Krallığının müvafiq orqanları bu rəqəmi 2020-ci il üçün 500 min nəfərə çatdırmağı qarşıya məqsəd qoyublar.

# Azərbaycanın kitabsevər uşaqları üçün

## Uşaq mütaliəsinin inkişafı sahəsində layihələr haqqında

**Uşaq və yeniyetmə mütaliəsinin inkişafı Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Bu yazıda nazirliyin və ölkə kitabxanalarının bu sahədə apardıqları işlərdən söz açmaq, eləcə də oxucuları nazirliyin bu sahədə gələcək layihələri ilə tanış etmək istəyirik.**

Mütaliə - təkcə cəmiyyətin deyil, həm də cəmiyyətin öz gələcəyinə olan münasibətinin indikatorudur. Təəssüf ki, müasir dünyada kitabın dəyəri və mütaliə nəzərəçarpacaq dərəcədə aşağı düşmüşdür. Mütaliə müasirlərimizin öz asudə vaxtlarını dolğunlaşdırdıqları məşğuliyyətlər siyahısında heç də birinci yer tutmur, onu televiziya və kompüterlər getdikcə daha çox sıxışdırıb çıxarır. Halbuki mütaliə edən insanlar informasiyanı daha tez təhlil edir, düzgün qərarlar tapır və qəbul edir, daha böyük yaddaş həcminə və aktiv yaradıcılıq təxəyyülünə malik olur, öz fikirlərini daha aydın formalaşdırır və ifadə edirlər, mühakimə və davranışlarında daha sərbəstdirlər. Başqa sözlərlə, mütaliə mənən kamil, savadlı və sosial dəyərli şəxsiyyət formalaşdırır.

Kitaba və mütaliəyə sevgi aşılamağa lap kiçik yaşlardan başlamaq zəruridir. Bu məqsədlə bir sıra ölkələrdə kitabxanalar tərəfindən gənc ailələr üçün xüsusi layihələr gerçəkləşdirilir. Rusiyada, məsələn, doğum evlərindən çıxış veriləndə kitabxanalar gənc analar üçün olan ədəbiyyat siyahısını, həmçinin 1 yaşından 3 yaşınadək körpələrlə bağlı uşaq kitabları siyahısını onlara təqdim edirlər. Finlandiya kitabxanalarında uşaqları və onların valideynlərini maraqlı tədbirlər gözləyir. Bunlar müxtəlif yaşlı uşaqlar üçün oyun seansları, məktəblilər üçün yeni kitablar və ya seçilmiş mövzu üzrə tematik kvestalar, lap balaca ziyarətçilər üçün art-zonada minitamaşalar və s.

Mütaliənin inkişafı bizim kütləvi kitabxanalarımızın fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Oxucular və respublika ictimaiyyəti hər ilin may ayında ölkəmizin şəhər və rayonlarında təşkil edilən və artıq onuncu dəfədir ki, ümummilli lider Heydər Əliyevin doğum gününə həsr olunan kitab bayramlarını səbirsizliklə gözləyirlər. Maraqlı kitab və jurnalların sərgisi, viktorinalar, şeirlər, mahnılar və rəqslər, müxtəlif müsabiqələr - bütün bu rəngarəng tədbirlərlə zəngin kitab bayramları əsl xalq gəzintisinə çevrilir.




* * *

Nazirliyin mütaliənin təşviqi sahəsində mühüm layihələrindən biri "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"dır. Ölkə Prezidentinin "Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" 20 aprel 2007-ci il tarixli sərəncamının icra edilməsi məqsədilə yaradılan virtual kitabxanada 5 mindən çox kitabın elektron versiyası yerləşdirilib və baza daim zənginləşdirilir. Kitabxana istifadəçilərinin rahatlığı üçün burada kitablar müxtəlif kateqoriyalar üzrə bölünüb. Hər dəfə buraya daxil olan oxucu virtual kitabxananın əsas səhifəsində yeni əlavələr (kitablar), eləcə də daha çox mütaliə edilən kitabları görür. Oxucular üçün rahat olan interfeysdə müəllifin adı, kitabın adı və açar söz vasitəsilə asanlıqla istənilən kitabı tapmaq olur.

Müxtəlif istifadəçi qruplarına virtual kitabxananın bazasında operativ və keyfiyyətli kitabxana-informasiya xidmətlərinin göstərilməsi üçün nazirlik tərəfindən "Mobil kitabxana" proqramı da sifariş edilmişdir. Onun bazasına siyasi, hüquqi, iqtisadi, tarixi, bədii, uşaq ədəbiyyatı, marketinq, menecment, biznes, kənd təsərrüfatı və s. sahələr üzrə kitablar (5 mindən artıq kitab) yerləşdirilib. Burada həmçinin, müəllif, kitabın adı və açar sözlər vasitəsilə axtarış aparmaq mümkündür. Təkrar axtarış zamanı rahatlıq məqsədilə lazımi yerdə əlfəcin-nişan qoyula bilər. Proqram lokal (offline), yəni internetsiz rejimdə də işləyir.

* * *

Mədəniyyət və Turizm Nazirliyi əvvəllər kiril qrafikasında çap edilmiş uşaq nəşrlərinin populyarlaşdırılmasına böyük diqqət yetirir. "Bərpanəşr" layihəsi üzrə hər il latın qrafikasına konvertə edilmiş kitablar nəşr olunur və kitabxanalara hədiyyə edilir.




Təkcə 2017-ci ildə nazirlik tərəfindən aşağıdakı kitablar nəşr edilərək ikinci ömür qazanmışdır: N.Gəncəvinin "İsgəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi", "Şah və xidmətçi", "Kərpickəsən", M.Cəlalın "İki rəssam", Qrimm qardaşlarının "Bremen musiqiçiləri", F.Sadığın "Bala kirpi", rus xalq nağılı "Gözəl Vasilisa", V.Suteyevin "Miyo eləyən kim idi?", "Məlikməmmədlə vəfalı atın nağılı", Ə.Haqverdiyevin "Ovçu Qasım", A.Axundovun "Neft çariçəsi haqqında nağıl", S.M.Qənizadənin "Nağıl", R.Rzanın "Təranənin oyuncaqları", "Qarışqa və göyərçin", "Xoruz". Bu kitablar yalnız F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yeganə nüsxədə saxlanılırdı. Uşaqların sevimli kitabı olan R.Kiplinqin "Mauqli"si də nazirliyin dəstəyi ilə işıq üzü görmüşdür.

* * *

Uşaq və yeniyetmələrin mütaliəyə marağının artırılmasına nazirliyin daha bir layihəsi - "Kitabsevər uşaqlar" kömək göstərib. 2016-cı ilin may ayında start verilən layihənin başlıca hədəfi balaca oxucuların estetik zövqünün, eləcə də yüksək intellektinin formalaşdırılması, internetdən rasional istifadənin öyrədilməsi, informasiya küyündən vaxtında uzaqlaşdırma, klassiklərin, həmçinin uşaq ədəbiyyatının müasir nümunələrinin təbliğidir. Bu məqsədlə Facebook-da səhifə yaradılıb və burada uşaqların dünyagörüşünü formalaşdıran, bilim dairəsini genişləndirən nağıllar, hekayələr, yumoreskalar, cizgi filmləri yerləşdirilib. Səhifəni indiyədək 9200-dən çox nəfər bəyənmiş, səhifədə 7400-ə yaxın şəkil paylaşılmışdır. Bu, respublikamızda sosial şəbəkələrdə uşaq ədəbiyyatını təbliğ edən, uşaqlarda mütaliə edilmiş materialın mənimsənilməsi vərdişlərini formalaşdıran yeganə səhifədir.




Nazirliyin 2017-ci ildə daha bir maraqlı layihəsi tanınmış uşaq yazıçılarının kitabxanalara turnesi oldu. Bu, pilot layihə idi. Yazıçılar Gülzar İbrahimova, Solmaz Amanova, Sevinc Nuruqızı Lənkəran və Şirvan şəhər Xaçmaz, Ağdaş, Quba, Bərdə, Tərtər, İsmayıllı, Salyan, Füzuli, Şəmkir, Bakı şəhərinin Xəzər və Sabunçu rayon mərkəzi kitabxanalarında oxucularla görüşdülər.

Daha bir yenilik respublikanın bir sıra kitabxanalarında "Hərfsevər" uşaq klublarının yaradılmasıdır. Bu klublar uşaqların intellektual və yaradıcı inkişafı üçün çoxsaylı opsiyalar təklif edəcək: uşaq yazıçıları, illüstrasiyaçılar və animasiyaçılar ilə görüşlər, inkişafetdirici oyunlar, bayramlar, müsabiqələr, 5 yaşından böyük uşaqlar üçün ustad dərsləri. Klubların bütün tədbirlərinə giriş sərbəst olacaq.

* * *

Mütaliəyə marağı tərbiyə etmək, uşaq və yeniyetmələrə ədəbiyyatı sevdirmək mərkəzi kitabxanaların uşaq şöbələrinin başlıca vəzifələridir. Kitabxanalarda onları sevimli yazıçılarının şeir və nağılları, öyrədici kitablar, oyuncaq-kitablar gözləyir, çoxsaylı digər tədbirlər keçirilir. Quba rayonunun Mərkəzi kitabxanası L.Kerrolun "Alisa möcüzələr ölkəsində" kitabının motivləri əsasında uşaq bayramı təşkil etmişdir. Kiçikyaşlı oxucularla görüşə gələn bu sevimli kitabın qəhrəmanları da elə bayram proqramının aparıcılarına çevrildilər.

Gəncə şəhər Mərkəzi kitabxanasında isə 2017-ci ildə "Uşaq kitabına resenziya" adlı aksiya keçirildi. Uşaqlar kitablarla bağlı rəy yazaraq bunları açıqca formasında tərtib etdilər. Ən yaxşı açıqca-rəylər tövsiyə edilən kitablarla birlikdə oxu zalında sərgiləndi. İştirakçılar kitabxana tərəfindən hədiyyələrlə mükafatlandırıldı.




"Gəncə! Birlikdə mütaliə edirik" layihəsi də maraqla qarşılandı. Kitabları teatr aktyorları, yazıçılar və şairlər, tələbələr, məktəblilər, bir sözlə, bütün arzu edənlər oxuyurdular. Hər ay üçün mütaliə proqramı müxtəlifdir. 2018-ci ildən hər şənbə bütün arzulayanlar "Ailəvi oxular"a dəvət olunacaqlar.

"Kitab çəməni" - bu, Füzuli rayon Mərkəzi kitabxanasında kiçikyaşlı uşaqlar üçün yaradılmış özünəməxsus kitab klubudur. Hər şənbə günü uşaqlar burada oynayır, musiqi dinləyir, uşaq kinolarına və cizgi filmlərinə tamaşa edirlər, uşaq kitablarının ucadan oxusu keçirilir. Layihədə populyar uşaq yazıçısı Gülzar İbrahimova iştirak edir, o tez-tez balacaları ziyarət edir, onlara kitablarını ucadan oxuyur.

* * *

2018-ci ildə biz yayda şəhərlərdə qalan və darıxmaq istəməyən uşaq və yeniyetmələr üçün "Qeyri-olimpiya oyunları" layihəsini reallaşdırmağı planlaşdırırıq. Bu, müxtəlif yaş kateqoriyalı uşaqların yaradıcı tapşırıqlar və inkişafetdirici oyunlarda yarışacaq, dilləri öyrənəcək, ədəbi viktorinalarda və digər cəlbedici müsabiqələrdə iştirak edəcəkləri kompleks tədbirlər olacaq. Layihədə 3 yaşdan 14 yaşınadək uşaqlar iştirak edəcəklər, valideynlər isə dəstək komandası kimi onlara azarkeşlik edəcəklər.

Həmçinin, "Yenə məktəbə. Möhtəşəm tənəffüs" adlı genişmiqyaslı festivalın keçirilməsi planlaşdırılır. Bu layihədə artistlər, psixoloqlar, pedaqoqlar, rəssamlarla birlikdə uşaqlar rəsm çəkməyi, yapmanı, öz hislərini düzgün büruzə verməyi öyrənəcəklər. Festivalın proqramında bədii qiraətçilər müsabiqəsi və peşəkar yönləmə üzrə ustad dərsləri, maarifləndirici viktorinalar, müsabiqələr də olacaq.




Uşaq və ailə mütaliəsinin dəstəklənməsi üzrə uğurlu iş formalarından biri - "Sən və mən kitabın ən yaxşı dostuyuq" Uşaq kitabı festivalının keçirilməsidir. Burada kitabxanaçıların əsas vəzifəsini uşaq və yeniyetmələrin rus, ingilis və s. dillərə, mütaliəyə davamlı marağının formalaşdırılmasında görürük. İstifadəçilərin yaş kateqoriyası - 4-dən 16 yaşadəkdir. Layihənin özəyini uşaq münsiflər heyətinin hakimliyi ilə müxtəlif müsabiqələr təşkil edəcək: mütaliəçilərin "Mənim sevimli şeirim", uşaq ədəbiyyatı bilicilərinin "Mütaliəni sevirəm", buktreylerlərin "Kitaba baxır və oxuyuruq!" və s. Festival çərçivəsində tematik uşaq rəsmləri müsabiqəsi təşkil ediləcək.

İlk dəfə olaraq "Biz kitabla birlikdə yüksəlirik!" festivalının təşkili planlaşdırılır. Bu sosial layihə bütün yaş həddində olan uşaqlar arasında ənənəvi (kağız) kitabların mütaliəsinin populyarlaşdırılmasına istiqamətlənib. Uşaqlar - yalnız tamaşaçılar deyillər, bütün tədbirlərin fəal iştirakçıları olacaqlar.

İbtidai sinif uşaqları üçün "Book kvest" bayramı layihəsini reallaşdırmağı da düşünürük, onun proqramına kitablar dünyasına səyahət, kitabın "doğulması" ilə bağlı slaydların nümayişi, oyunlar, müsabiqələr, sevimli kitaba dair səsvermə daxildir və əlbəttə ki, sürprizlərsiz ötüşməyəcək.

Günlərlə vaxtlarını kompüter arxasında keçirən və mütaliəni sevməyən uşaqlarda mütaliəyə həvəsi inkişaf etdirmək üçün kitabxanaçılar proqramçılarla müştərək olaraq "Buklenddən olan xəyalət" adlı cəlbedici kompüter oyununun yaradılması haqqında düşünürlər. Bunlar təhlükəli yaramazlar və xeyirxah qəhrəmanlarla dolu olan şəhərdə çox maraqlı macəralar, sevimli kitabların personajları ilə görüşlərdir.

Bir məqalədə nazirliyin və kitabxanaların mütaliənin dəstəklənməsinə və inkişafına istiqamətlənən bütün layihələri barədə ətraflı danışmaq mümkün deyil. Biz bütün kitabxanaları, ictimaiyyəti əldə edilənlərlə kifayətlənməməyə çağırır və ümid edirik ki, gələcəkdə çoxlu sayda yeni ideyalar meydana çıxacaq və həyata keçəcəkdir. Həmin layihələr gənc nəslə kitaba və mütaliəyə sevgini qoruyub saxlamaqda və bunun köməyi ilə onlara öz təxəyyülünü, yaddaşını, intellektini inkişaf etdirməkdə, mənən kamil və sosial baxımdan dəyərli şəxsiyyətlərə çevrilməkdə kömək göstərəcək.

**Lətifə Məmmədova**
***Mədəniyyət və Turizm Nazirliyinin Kitab dövriyyəsi sektorunun müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan Xalq Cümhuriyyəti - 100

**1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tariximizin Cümhuriyyət mərhələsi milli təfəkkür işığında təhlil və təbliğ olunmağa başlandı. Həyatının bir hissəsini mühacirətdə yaşamış Cümhuriyyət qurucularının ömür yolu və yaradıcılığına dair araşdırmalar aparıldı, tarixi həqiqətlər gün üzünə çıxdı. Müstəqilliyimizin ilk illərində Hüseyn Baykaranın "Azərbaycanın istiqlal mübarizəsi tarixi", Xaqani Məmmədovun "Azərbaycan milli hərəkatı" və Nəsib Nəsibzadənin "Azərbaycan Demokratik Respublikası" və s. elmi araşdırmalar ictimaiyyətə təqdim olundu.**

# Cümhuriyyət tariximiz və ədəbi fəaliyyət

## Çoxsaylı araşdırmalara sevinsək də, dolğun bədii əsərlərin yoxluğu təəssüf doğurur



*27 may 1919-cu il. Cümhuriyyətin bir yaşı münasibətilə Nazirlər Şurasının iclası*

**Ədəbi-bədii nümunələr**

Azərbaycan ictimaiyyəti sanki 70 il müddətində hər vəchlə unutdurulan, demokratik dəyərlərinə qara yaxılan Xalq Cümhuriyyəti haqqında aparılan araşdırmalara, daha doğrusu, milli həqiqətlərə susamışdı. Çünki sovet dövründə yazılan bədii əsərlərdə, bir sıra ekran işlərində ilk demokratik respublika və onun aparıcı simaları ideoloji-siyasi ab-havaya uyğun olaraq mənfi planda verilmişdi.

XX əsrin 20-30-cu illərinin həqiqətləri 90-cı illərin əvvəllərində bədii ədəbiyyatda daha qabarıq şəkildə canlandırılmağa başlandı. Müstəqillik illərində bir sıra müəlliflərin qələmə aldığı nəsr nümunələrində tariximizin bu şanlı səhifəsinə yer verilirdi.

Görkəmli dramaturq, Xalq yazıçısı İlyas Əfəndiyevin 1993-cü ildə yazdığı "Qaçaq Süleymanın ölümü" əsərində tariximizin Cümhuriyyət səhifəsi öz əksini tapıb. Onu da qeyd edək ki, böyük ədibin hələ 1980-ci ildə, sovet dönəmində yazdığı "Geriyə baxma, qoca" romanında da çox qısa bir müddətdə dörd hakimiyyətin - çar üsul-idarəsi, müvəqqəti burjua hökuməti, Xalq Cümhuriyyəti və bolşevik rejiminin bir-birini əvəz etməsinin xalqın müxtəlif təbəqələrinin həyatında yaratdığı ümid və gözləntilər özünün bədii ifadəsini tapmışdı. Tənqidçi Yaqub İsmayılov "Geriyə baxma, qoca" əsəri haqqında yazır ki, bu roman bir şəxsin mənsub olduğu millətin tarixi keçmişinə hörmətidir.

Xalq yazıçısı İsmayıl Şıxlının "Ölən dünyam" romanı isə bir sıra tarixi həqiqətlərin qapısını xalqın üzünə açmışdı. Cümhuriyyətin ədəbi və tarixi şəxsiyyətlərinin obrazının yer aldığı Əlisa Nicatın "Mələklər və iblislər" romanı da bu baxımdan dəyərli nümunələrdəndir. Əsərdə Cümhuriyyətin qurulmasından əvvəlki illər və onun süqutundan sonrakı dövr də əks olunub. Burada oxucular M.Ə.Rəsulzadə, N.Nərimanov, F.Xoyski, Ənvər Paşa, Ş.Xiyabani və digər tarixi simaların obrazları ilə qarşılaşır. Bundan əlavə, 2000-ci ilin əvvəllərində türkiyəli müəllif Müslim Oğuzun "Nigar ağlar mayısa" romanında Xalq Cümhuriyyəti dövrünün hadisələri bədii təcəssümünü tapıb.

Yazıçı-publisist Teyyub Qurbanın "Dönməzlik" povesti bütün həyatını Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş Məhəmməd Əmin Rəsulzadə haqqındadır. Onun özünün və ailəsinin başına gətirilən müsibətlər də əsərdə öz əksini tapıb. Nahid Hacızadənin "Yaşa, ey haqq" adlı hekayəsində Rəsulzadənin vətəndən ayrı keçən həyatının son illəri lirik-psixoloji cizgilərlə təsvir edilib. Yazıçı, tərcüməçi Nəriman Əbdülrəhmanlının "Qurban" roman-xronikası, Arif Əliyevin "Yalama" sənədli povesti, yazıçı-dramaturq Əli Əmirlinin Ceyhun Hacıbəylinin ömür yoluna işıq tutan və bu yaxınlarda səhnə həyatı qazanan "Nuri-didə Ceyhun" pyesi bu baxımdan xarakterik nümunələrdir.

**Elmi araşdırmalar**

Ötən dövrdə Cümhuriyyətin tarixi, o zamanın ictimai-siyasi mənzərəsi, ədəbiyyatı, mədəniyyəti, maarifçiliyi və s. mövzularda sanballı araşdırmalar ərsəyə gəlib, kitablar nəşr olunub. Bu sırada "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası"nın əhəmiyyətli yeri var. Bu nəşr Cümhuriyyət qurucuları, milli hökumətin fəaliyyəti, dövrün ictimai-siyasi, mədəni, ədəbi mənzərəsini dolğunluqla əks etdirir.

M.Ə.Rəsulzadənin əsərlərinin silsilə nəşri, professor Şirməmməd Hüseynovun Cümhuriyyətə həsr olunan kitabları, Azər Turanın "Əli bəy Hüseynzadə", Gülsərən Akalının "Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu", Ziyadxan Nəbibəylinin "Sultan bəy və Xosrov bəy qardaşları", Əlimərdan bəy Topşubaşovun "Paris məktubları", Nağı Keykurinin "Nağıbəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri", Sona Vəliyevanın "Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası", Yusif Ağayev və Səbuhi Əhmədovun "İstiqlal yürüşü - 1918", Akif Aşırlının "Cümhuriyyət dövrü mətbuatında Qafqaz İslam Ordusu", Nəsiman Yaqublunun "Məhəmməd Əmin Rəsulzadə", "Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu", "Bakının qurtuluşu", Aydın Dadaşovun "Məhəmməd Həsən Hacınski" və s. monoqrafiya və kitablar Azərbaycanın dövlətçilik tarixinin bu şanlı dövrünün hərtərəfli öyrənilməsi baxımından dəyərli mənbələrdir.

Cəmi 23 ay mövcud olmuş milli respublikanın müxtəlif sahələrdə həyata keçirdiyi işlərə həsr olunan bu tədqiqat əsərləri Cümhuriyyətin gerçək tarixinin bugünkü və gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Amma təəssüflə onu da qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin tarixini dolğun, yüksək sənətkarlıqla ifadə edən bədii əsərlər hələ qələmə alınmayıb. Bunun da, təbii ki, obyektiv və subyektiv səbəbləri var. Lakin müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin fəaliyyətini və ideallarını əks etdirən əsərlərin yazılmasının vaxtı çoxdan çatıb. Yetişən gənc nəsillər cümhuriyyətçilik məfhumunu həm də ədəbi yaddaşdan mənimsəməlidirlər. Tariximizin bu unudulmaz səhifəsinə dair yeni bədii əsərlər oxumaq arzusu ilə

**Lalə Azəri**

# Cümhuriyyət ideologiyası kontekstində filoloji fikrin keçdiyi yol

Azərbaycan Universitetində "Cümhuriyyət ideologiyası kontekstində filologiya elmi" mövzusunda respublika konfransı keçirilib.

Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyinə həsr olunan tədbirdə çıxış edən universitetin rektoru Səadət Əliyeva bildirib ki, XIX əsrin sonu - XX əsrin əvvəlləri tariximizin zəngin dövrü idi. Həmin dövrün aparıcı ədəbi simaları, görkəmli ədibləri olmasaydı, Cümhuriyyət məfkurəsi formalaşmaz, belə bir dövlət qurulmazdı.

Konfransın plenar iclasında professorlar Fəxrəddin Veysəlli, Vaqif Sultanlı və Bədirxan Əhmədov mövzu ətrafında məruzələrlə çıxış ediblər.

Məruzələrdə AXC dövründə əlifba və dil sahəsində görülmüş genişmiqyaslı işlərdən söz açılıb, Cümhuriyyətin elmi ədəbiyyatdakı adı, Qafqaz İslam Ordusunun Azərbaycana dəvət olunması, Bakının işğaldan azad edilməsi, habelə AXC qurucularının ictimai-siyasi fəaliyyəti kimi mövzulardan bəhs olunub. Həmçinin Azərbaycan bayrağının rənglərində ifadə olunan, dövlətçilik ideologiyasında mühüm rol oynayan "türkləşmək, islamlaşmaq, müasirləşmək" üçlü formulunun keçdiyi yola nəzər salınıb.

Sonra "Azərbaycan ədəbi dilinin müasir durumu və nəzəri problemləri", "Ədəbi tənqid və ədəbiyyatşünaslıq problemləri" mövzulu bölmə iclasları keçirilib.

# Beynəlxalq elmi konfrans keçiriləcək

İyunun 27-dən 30-dək Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutu, Türkiyənin Atatürk Araşdırma Mərkəzi və bu ölkənin Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək.

Tarix İnstitutundan bildirilib ki, tədbir Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunub. Elmi konfransda iştirak etmək istəyənlər 8-10 səhifə həcmində məqalələrinin elektron variantlarını mayın 10-dək cumhuriyyetkonfransi@gmail.com ünvanına göndərməlidirlər. Daha ətraflı məlumat üçün Təşkilat komitəsinə müraciət etmək olar.

# 1918-1920-ci illərin hərbi-dənizçilik tarixindən

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin əməkdaşı, tarix elmləri doktoru, professor Nurulla Əliyevin "1918-1920-ci illərdə Azərbaycan hökumətinin fəaliyyətində hərbi-dəniz aspektləri" kitabı çapdan çıxıb.**




Kitabın elmi məsləhətçisi AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, elmi redaktoru Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru Qasım Hacıyevdir. Nəşrdə 1918-1920-ci illərdə Azərbaycanda baş vermiş mühüm hərbi-siyasi hadisələr, Xalq Cümhuriyyəti hökumətinin hərbi-dənizçilik sahəsində fəaliyyəti kompleks şəkildə işıqlandırılıb.

Kitabın "Xəzər bölgəsinin böyük aparıcı dövlətlərin geostrateji rəqabət obyektinə çevrilməsi və Azərbaycan Xalq Cümhuriyyəti 1918-1919" adlandırılan birinci fəslində I Dünya müharibəsi illərində, eləcə də Rusiya imperiyasının süqutundan sonra Qafqaz bölgəsində baş verən proseslərdən, Xəzər regionunun böyük dövlətlərin geosiyasi rəqabət obyektinə çevrilməsindən söhbət açılır. Həmçinin belə gərgin ictimai-siyasi şəraitdə xalqımızın milli azadlıq mübarizəsi, Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi geniş işıqlandırılıb. "1919-1920-ci illərdə Azərbaycan hökumətinin ölkənin hərbi-dəniz müdafiəsinin təşkili sahəsində fəaliyyəti" adlı ikinci fəsildə Xəzər bölgəsinə nəzarət uğrunda aparılan mübarizədən ətraflı söhbət açılıb.

Əsərdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ordu quruculuğu, ölkənin müdafiə qabiliyyətinin artırılması və hərbi-dəniz qüvvələrinin yaradılması istiqamətində fəaliyyətini əks etdirən fotoşəkillərə də geniş yer verilib.

# Türkmən dastanları

**Dastanlar türkmən şifahi xalq ədəbiyyatının ən geniş yayılmış janrlarından biridir. Türkmənlər bu janrı "dessan", "epos", "anonim dessan", "avtorlu dessan" və s. kimi terminlərlə adlandırırlar. Bu dastanların təsnifatı ilə bağlı müxtəlif fikirlər var. Türkmən folklorşünaslığının görkəmli nümayəndəsi Beymuhammet Garriyev türkmən dastanlarını qəhrəmanlıq, məhəbbət və dini olmaqla üç yerə bölüb.**



"Göroğlu", "Yusup-Ahmet", "Alı bey Balı bey", "Dövletyar" və s. qəhrəmanlıq dastanlarında türkmənlərin tarixi, yadellilərə qarşı mübarizəsi bədii əksini tapıb. "Şahsenem bile Qarip", "Yusup bile Züleyxa", "Gül-Senuber", "Aslı bile Kerem", "Xuyrlukqa-Xemra", "Sayatlı Xemra" və s. nümunələr məhəbbət dastanlarıdır.

İslamın qəbulundan sonra türk dastan ənənəsinə bu dinlə bağlı bir çox motivlər daxil olub. Bu mövzuda yaranan türkmən dastanları əsasən dini şəxsiyyətlərlə ("Baba Rövşən", "Zeynelarap ve Muhemmethanapye" və s.) bağlıdır.

Filologiya üzrə elmlər doktoru, folklorşünas Almaz Hüseynova türkmən folkloru ilə bağlı araşdırmalar aparır. O bildirir ki, türkmənlərin ən qədim abidələri başqa oğuz boylarında olduğu kimi, "Oğuznamələr" hesab edilir: "Türkmən dastan yaradıcılığının inkişafında folklor söyləyicisi olan baxşıların (baxşı - özbək, qazax, qırğız, uyğur, türkmən, qaraqalpaq türklərinin şair-nəğməkarı) böyük rolu var. Onlar dastanları öz repertuarında yaşadıb söylədikləri auditoriyadan asılı olaraq əlavələr edib qoruyublar. Hətta bəzi qaynaqlarda XX əsrdə məclislərdə baxşıların "Oğuznamələr"dən parçalar, "Kitabi-Dədə Qorqud"dakı Beyrəklə bağlı boyu əsas süjet qorunmaqla bir qədər fərqli söylədikləri qeyd olunur".

"Göroğlu" baxşılar tərəfindən ən çox ifa olunan dastanlardandır. Bu eposda real hadisələrlə yanaşı, mifoloji ünsürlər üstünlük təşkil edir və obrazlar türkmən ruhuna uyğunlaşdırılıb. "Göroğlu" dastanının qəhrəmanı başına topladığı qırx igidlə vətənini, xalqını bəlalardan qoruyur, bu yolda dəfələrlə ölüm-dirim savaşına girir. Dastan qəhrəmanlarının səfər etdikləri ərazilər içərisində Türkmənistanla yanaşı, Qafqaz, Azərbaycan coğrafiyasına aid yerlər də var. Epos ənənəvi olaraq nəsr və nəzm hissələrindən ibarətdir. Poetik parçalar özünəməxsus musiqi ilə ifa olunur.

A.Hüseynova bildirir ki, türkmən məhəbbət dastanları XVI-XVII yüzillərdə yaranıb. Başqa türk xalqlarında olduğu kimi, çox hallarda aşiq öz sevgilisini yuxuda görür və bir çox çətinliklərdən keçərək onu axtarmağa yollanır.

Türkmən dastan ənənəsində iki istiqamət özünü göstərir. Onların bəziləri ("Şahsenem bile Qarip", "Aslı bile Kerem" və s.) şifahi xalq yaradıcılığı nümunələridir. Bundan əlavə, Şərq ədəbiyyatının ən məşhur, eləcə də "Şahnamə" ilə bağlı mövzuları ("Rüstəm bile Söhrab", "Fərhad bile Şirin") türkmən baxşıları tərəfindən dastanlaşdırılıb. "Yusup və Əhməd"in Mağrupi, "Zöhre bile Tahir"in Molla Nepes, "Sayatlı Xemra"nın Şabende, "Leyli və Məcnun"un Endelib tərəfindən yaradıldığı həmin dastanların əlyazmalarında qeyd edilib.

Alim bildirir ki, türkmən xalq nağılları dastanlara güclü təsir göstərib. Bu dastanlarda başqa türk xalqlarının şifahi epik ənənəsində də təsadüf olunan motivlərə ("övladsızlıq", "ov və ovçuluq", "ölüb-dirilmə", "qılıç dəyişdirmə" və s.), eləcə də mifoloji elementlərə (əjdaha, div, dövlət quşu, Qaf dağı, Simurğ) təsadüf edilir.

Məhəbbət dastanları da nəzm və nəsr hissələrindən ibarətdir. Qəhrəmanın keçirdiyi mənəvi sarsıntılar daha çox şeirlərlə ifadə olunur, onların içərisində deyişmələrə də təsadüf edilir. Çağımızda türkmən baxşıları sevə-sevə "Sayatlı Xemra", "Xuyrlukqa - Xemra", "Zöhre bile Tahir", "Şahsenem bile Qarip" dastanlarını yaşatmaqdadırlar.

**S.Qaliboğlu**



## Qorqud Atanı dünya dinləyəcək

**Türkdilli xalqların ortaq eposu olan "Qorqud Ata"nın 16 qolu və 9 küyü (qazax və qırğızların milli kobız, dombra kimi alətlərdə ifa etdikləri 2-4 dəqiqəlik instrumental pyes) Tokio Universitetində nəşr edilən "Dünya musiqi audioensiklopediyası"nın növbəti toplusuna daxil edilib.**

Əsərlər Aralyanı bölgənin dastançılarının dilindən lentə alınıb. Bu uğurdan ruhlanan bölgənin mədəni ictimaiyyəti Qızıl Orda vilayətinin Karmakşi rayonunda Qazax Ənənəvi Sənət Akademiyasının açılması barədə təşəbbüs irəli sürüb. Karmakşili Bakbergen Bekniyazov ağacdan Dədə Qorqud qopuzunun varisi sayılan kobız musiqi alətini düzəldən nadir ustalardandır. Bu sənəti babasından öyrənib, öz təcrübə və biliyini böyüyən nəslə ötürmək niyyətindədir: "İstəyirəm ki, emalatxana açım, istedadlı gənclərə ağacdan milli suvenirlər, qablar və musiqi alətləri düzəltməyi öyrədim. Bizim bütün mədəni irsimiz dombra və kobızın səslərində toplanıb".

Oğuzlar dövrünün daş kobızı Qazaxıstanda indiki Qorqud Ata kompleksinin yaxınlığında tapılıb. Qədim Sortobe şəhərciyində aşkar edilmiş qiymətli arxeoloji tapıntılar isə sübuta yetirir ki, IX-X əsrlərdə burada oğuz mədəniyyəti çiçəklənibmiş. Mütəxəssislər əbəs yerə Karmakşi rayonunu ənənəvi musiqi sənəti qoruyucularının cəmləşdiyi yer adlandırmır və onu Qorqud Atanın adı ilə bağlamırlar. Dastan söyləyən jırau (akından, yəni aşıqdan fərqli olaraq, jırau özü nəğmə və söz qoşmur, yalnız ifaçılıqla məşğuldur) sənəti də məhz bu rayonda yaranıb.

## "Dünyanın o başı" üçün Özbəkistanda məkan axtarılır



Tanınmış yapon rejissoru Kiyosi Kurosava öz yeni filmini Özbəkistanda çəkməyə hazırlaşır. Rejissor işçi adı "Dünyanın o başı" olan filmi üçün münasib məkan axtarır.

Filmin süjeti Özbəkistana çəkilişə gəlmiş səyahət realiti-şousu aparıcısının başına gələn əhvalatlar üzərində qurulub.

Kurosava deyib: "Teymurilər imperiyası uzun illər ərzində məni heyran etmişdi. Bu gün isə həmin imperiyanın ərazisində özbək xalqı yaşayır. Mən İpək Yolunun tən ortasında film çəkəcəyəm. "Dünyanın o başı" mənim digər filmlərimə bənzəmir, bu lent eyni vaxtda bir neçə arzunun gerçəkləşməsi olacaq".

Layihə Yaponiya ilə Özbəkistan arasında diplomatik münasibətlərin 25 illiyinə həsr olunub.



## "Səni mən yaratdım..." "Bua: dialoq məkanı"na gedəcək

Mayın 15-dən 24-dək Tatarıstanın Buinsk şəhərində "Bua: dialoq məkanı" Beynəlxalq teatr festivalı keçiriləcək. Festivala İsveçrə, Estoniya, İtaliya, Belarus, Qazaxıstan və Rusiya regionlarının teatrları qatılacaq.

M.Qafuri adına Başqırd Akademik Dram Teatrı festivalda "Səni mən yaratdım..." tamaşası ilə iştirak edəcək. Tufan Minnullinin pyesi əsasında hazırlanmış tamaşaya Azat Nadırqulov quruluş verib. Əsər kişi və qadın münasibətləri, hər birimizin rastlaşdığı və hiss etdiyi biganəlik və total tənhalıq haqqında əhvalatdır. Tamaşa bir daha sübut edir ki, insanın qəlb ağrıları, daxili yaşantıları yalnız tək bir üsulla - sevgi, hərarət və diqqətlə sağala bilər.

## "Atılmış" kitab olmur

Ankarada "Atılmış kitablar kitabxanası" fəaliyyətə başlayıb. Kitabxana şəhərin təmizlik işçilərinin təşəbbüsü ilə yaradılıb. Burada paytaxt zibilliklərindən toplanmış kitablar toplanıb.

Əvvəlcə kitabxananın təmizlik işçiləri və onların ailə üzvləri üçün fəaliyyət göstərəcəyi planlaşdırılıb, lakin fond böyüdükcə, paytaxt sakinlərinin də bu qeyri-adi kitabxanaya marağı artıb. Sonda kitabxananın hər kəsin üzünə açıq olacağına qərar verilib.

Kitabxanada bədii ədəbiyyatdan elmi əsərlərədək təxminən 6 min nəşr toplanıb. Kitab kolleksiyası böyüdükcə kitabxana "qurtulmuş" kitabları təhsil müəssisələrinə və hətta cəzaçəkmə evlərinə də hədiyyə etməyi planlaşdırır.

Çankaya Bələdiyyəsi köhnə kərpic zavodunun binasında kitabxanaya yer ayırıb.

Kitabxanadan daha çox bələdiyyə işçilərinin uşaqları və qonşuluqdakı məktəblərin şagirdləri istifadə edir.




*Hazırladı: Gülcahan Mirməmməd*

# Milli-mənəvi Mayaklar

## 100 yaşlı Cümhuriyyətimizin əbədiyaşar qurucularından Nəsib bəy Yusifbəyli



**Cəmisi 39 illik bir ömürdə, bəlkə də, 40 cildə sığmayası milli-şərəfli bir tərcümeyi-hal qazanmış Cümhuriyyət hökuməti başqanımız haqda sözümə onun nəfs əxlaqına dair bir epizodla başlamağı qərarlaşdırdım; bir gün yenə hansısa ailədaxili problemin həlli üçün təsərrüfatcıl atasından pul istəyən Nəsib bəy bu cavabı alır: "Tələbəliyində pul lazım olduqca verdim. Siyasətdə olanda dəfələrlə yazdın, göndərdim. Maarif naziri, Daxili işlər naziri işləyəndə istədin, verdim. İndi ki Baş nazirsən, yenə pulun yoxdur?.."**

Yox, bu azman Şəxsiyyət, cılız şəxslərin arşınıyca, "fərsiz-fərasətsiz"lərdən deyildi. İpəkdən zərif irfaniliyilə bahəm, nüfuzedici baxışıyla dik başları endirtdirən igid kimi də tanınmış Nəsib bəy erməni terrorunun tüğyan etdiyi illərdə öz milli əqidədaşları ilə Gəncədə "qana qan!" devizli "Difai" (dəfedici) təşkilatı (atası Yusif bəyin Həmid bəylə yaratdığı gizli müdafiə qurumu "Qeyrət"in bazası əsasında) yaratmışdı.

Böyük millətçimiz Ə.Ağaoğlunun ideoloqluğu ilə yaradılmış həmin "Difai"nin bəyannaməsindən: "Erməni terror təşkilatları bundan sonra da müsəlmanlar üzərinə hücumlar edərsə, bizdən layiqli cavab alar. Daşnak partiyası əmin olsun ki, biz heç bir vaxt öz millətimizin bədbəxtliyi üzərində ermənilərin səadət və xoşbəxtlik qurmasına yol verməyərik!".

"Difai" qısa müddətə elə bir uğur qazanır ki, tez-tələsik danışıqlara başlayan ermənilər bizə qarşı vəhşiliklərini dayandırmalı olurlar (əlbəttə, müvəqqəti).

Bu universal-fenomenal milli istiqlal mücahidinin mübarizə-xidmət fəaliyyətini hansısa konkret "qəlib"də vəsf etmək mümkünsüz. Ancaq, hər halda, oçerkizm tarixinin "həyat və yaradıcılığı" trafareti ayağından yanaşıban -

### Birincidən başlayaq

Qədim Gəncənin köklü-köməcli əsilzadə soylarına mənsub (babası Usub bəy Cavad xanın vəziri olub) Nəsib bəy Yusif bəy oğlu Yusifbəyli 5 iyul 1881-ci ildə doğulub. 1902-ci ildə başa vurduğu Gəncə klassik gimnaziyası direktorunun yazdığı xasiyyətnamədən: "Gəncə gimnaziyasında bulunduğu bütün 12 il boyunca bacarığı, əməksevərliyi, təvazökar davranışıyla seçilib. Boş vaxtlarını kitablar oxumaqla keçirib. Gimnaziya öhdəliklərini səliqə ilə yerinə yetirib".

O, 1902-ci ildə Odessa Universitetinin Tibb fakültəsinə qəbul edilir, 1903-cü il ərizəsilə Hüquq fakültəsinə dəyişilir, lakin 3 semestrdən sonra, təhsil haqqını ödəyə bilmədiyindən, universitetdən çıxarılır. 1907-də "ödəmə imkanı" yaransa da, Rusiyanı bürüyən inqilabi hərəkatla ilgili universitet müvəqqəti bağlanır və Nəsib bəyin "başıbəlalı təhsil illəri" hekayətinə Xarkov Universitetinin də adı düşür. İşə baxın ki, həmin universitetin məlum bolşevik-sovet dönəminə qədərki bütün arxivi müharibə zamanı məhv olduğuna görə, Nəsib bəyin bu universiteti haçan və necə bitirməsilə bağlı səhih bir məlumat yoxdur. Ancaq, tədqiqatçılar "Yeni həqiqət" qəzetinin: "hörmətli hüquqşünas N.B.Yusifbəyli", M.Ə.Rəsulzadənin: "Nəsib bəy... ali təhsil görmüşdür" kimi ifadələrinə, habelə, diplomsuz bir adamın təhsil naziri təyin edilməsinin mümkünsüzlüyü məntiqinə görə, onun həmin universiteti bitirdiyi vurğulanır.

### Mübarizə tərcümeyi-halı

1909-cu ildə Gəncəyə qayıdıb şəhər bələdiyyəsində çalışan, 1911-də "Molla Nəsrəddin" jurnalı və qəzetlərdə çıxış edən, bir sıra xeyriyyə cəmiyyətinin, 1917-ci ilin martında öz yaxınları ilə yaratdığı ("Rusiyanın milli ərazi muxtariyyətləri əsasında təşkili" tələbli) "Milli Federalist Türk Partiyası"nın işlərində milli bir əzmlə çalışır.

Bir müddət sonra M.Ə.Rəsulzadə ilə yaxından tanış olub, "Rusiyanın milli ərazi muxtariyyətləri əsasında qurulması" ideyalı Müsavat Partiyası ilə birləşəsi Nəsib bəy bütünlüklə ictimai-siyasi fəaliyyətə başlayacaq.



*Nəsib bəy Yusifbəyli (sağdan üçüncü) silahdaşları ilə birlikdə*

Ancaq hələlik o, bir çox Türk ünvanlarında hürriyyət savaşındadır.

1907-ci ildə Baxçasaraya gəlir, Rusiya müsəlmanlarının milli oyanışı üçün böyük maarifçilik missiyasını həyata keçirən (tezliklə "Kaspi" qəzetinin "Bütöv bir millət" adlandıracağı) görkəmli jurnalist və ictimai-siyasi xadim Qaspıralının "Tərcüman" qəzetində çalışır. Rusiya məktəblərində şagird və tələbələrin izlənilməsi üçün yaradılmış "şpiyonlarla dopdolu xəfiyyə sistemi", "Mediyev başda olmaqla, Pobedonostsev və İlminskilərin "müsəlmanları ruslaşdırmaq" siyasəti, "velikorus şovinizminin XX əsr örnəyi Dmitrinski"nin "Tatarları elə tatar müəllimlərinin köməyilə ruslaşdırmalı..." kimi məsələlərlə bağlı silsilə məqalələrlə çıxışlar edir və elə "ailə quruculuğu"na da burada nail olur; İsmayıl bəyin qızı Şəfiqə xanımla evlənir.

Bu məqamda Şəfiqə xanıma yazdığı iki məktubdan sətirlər:

"...Mən bugünlərdə bir mövzudan digərinə dəlilər kimi atılıram. Keçənlərdə bir toplantıda çocuq təhsilinin nə qədər önəmli olduğu üzərində durdum... Hələ mənim öz zavallı atamın da bəzi görüşlərimi bəyənməməsi, oğlundan yolunu azmış birisi kimi bəhs etməsi!.."

"Bu arada başım bərk qarışıqdır, səhərdən-axşama 13 uşağı məktəbə hazırlayıram. Bir çoxları isə mənim bu qayğımı düzgün anlamır: "Necə olur da bu qədər vaxtımı qarşılıqsız olaraq onlara sərf edirəm?.."

Öz çağının şahid-araşdırıcıları bu böyük publisistin "Təslim" adlı roman yazdığını da qeyd ediblər.

Bütün vaxtını ictimai-siyasi-milli mübarizələrə sərfi (və bugünədək də sirr olan bir ailə ixtilafı) üzündən ayrılan Nəsib bəy-Şəfiqə xanım cütlüyü 1918-ci ildə yenidən birləşir. Azərbaycanda Cümhuriyyət qurulduqdan sonra o, ailəsini Bakıya gətirir. Lakin heç iki il keçməmiş bu ailə yalnız Tanrıya və başdan-başa şər bolşevizmə bəlli bir qətl səbəbilə əbədi ayrılmalı olur.

Bu müəmmalı qətlin "baş tutmayan ilk versiyası" Azərbaycan Mərkəzi Tarix Arxivinin (illərlə heç kəsin diqqətini cəlb etməmiş) sənədləri içərisindəki 9 səhifəlik bir cinayət işində (bu "iş"də oxuyacağınız familiyalar da öz "iş"ində!):

4 iyun 1919-cu il. Günorta vaxtı AR Nazirlər Sovetinin sədri N.Yusifbəyli mənzilindən çıxıb avtomobilinə tərəf irəliləyir. 5 dəqiqə sonra mühafizə bölüyünün süvarisi Ə.H.Dadaşov giriş qapısının davamında şübhəli bir adam görür və əlindəki bombanı ona verməsi tələbinə əməl etmədiyindən, xidməti silahını çıxarıb ona tuşlayır. Şübhəli şəxs tüfəngdən yapışıb müqavimət göstərir. Dadaşov alaqapıdakı mühafizəçi M.Q.Mirağaoğlunu köməyə çağırır və naməlum adam Bakı şəhər 5-ci polis bölməsinə gətirilir.

Dindirilmə zamanı müəyyənləşir ki, bu şəxs - Aram Budaqov 1918-ci ildə Şamaxıdan Bakıya köçmüş bir erməni ailəsindəndir və guya o, Qafqaz İslam Ordusunun Bakını işğaldan azad etdiyi vaxt "Türklər tərəfindən zərər çəkib". A.Budaqova qarşı cinayət işi açılır, şahidlər dindirilir, onun sui-qəsddə istifadə edəcəyi partlayıcı maddənin - "Türkləri Bakıya buraxmamaq məqsədilə atasının ruslardan 8 min 600 rubla aldığı bomba"nın ekspertizası keçirilir. Məhkəmə prokuroru Eristov isə Azərbaycan Məhkəmə Palatası prokuroruna belə bir məktub göndərir: "Zati-alinizə bildirirəm ki, bu ilin 4 iyununda baş vermiş hadisə üzrə istintaqa başlanılıb. İstintaq Qavrilovun müşahidəsi altında aparılır. İstintaqın gedişi barədə əlavə məlumat veriləcəkdir".

Və... bu işin xitamı 1920-nin 29 aprelində (! - Azərbaycanda sovet hakimiyyətinin "qələbə"sindən bir gün sonra) verilir...

Həmin ilin 27 aprelində isə Nəsib bəy pərişan halda (rus sürücüsü Mitya ilə) evə gəlib bildirir ki, hər yerdə tuthatutdur. Cibindəki pulun bir hissəsini stolun üstünə qoyaraq, xanımını və iki azyaşlı övladını məlul-məlul süzür, bəlkə uzun müddət görüşə bilmədik, özünüzü qoruyun, - deyib, qapıdan çıxır.

Başsız ailə indiki Filarmoniya ilə üzbəüz binadakı mənzildən bayıra atılır. Xeyirxah insanlar, qısa müddətdə millət atalarından biri kimi tanınmış Baş nazirin külfətini şəhərin kənarında kiçik bir daxmaya yerləşdirir. Bundan bir müddət sonra xəbər tutan Türkiyənin Bakı konsulu (Məmduh Şövkət) gizlincə Şəfiqə xanımın yanına adam göndərib məqsədini anladır və tezliklə, bolşevik casuslarından yayındırıcı sənədlər düzəltdirərək onların Türkiyəyə keçməsini təmin edir. Xoş bir təsadüf nəticəsində Trabzonda qarşılaşdıqları AXC liderlərindən Şəfi bəy Rüstəmbəyli onları İstanbula gətirir və Şəfiqə xanım burada minimum yaşam imkanları tapa bilir. Qızı Zöhrə Cümhuriyyətin Avropaya ali təhsil almaq üçün göndərdiyi yüz tələbədən biri (bolşevik istilasından sonra Azərbaycana dönə bilməyən) Mirzə bəy Hacızadə ilə ailə qurur. Ata yolunu davam etdirən oğlu Niyazi Yusifbəyli isə mühacirət təşkilatları və mətbu orqanlarda çalışır.

N.Yusifbəylinin qətl xəbəri İstanbula və Şəfiqə xanıma gec çatır. Türkiyədə nəşr olunmuş bir kitabdakı iki-üç cümlə bu xanımın Nəsib bəy əqidəsinə və sevgisinə ömrünün sonunadək sadiqliyindən xəbər verir: "Nəsib, hardasan? Heç nə bilmirəm. Harda olursan-ol, ətrafın nurla dolsun. Səni çox sevirəm, Nəsib!.."

Cümhuriyyətimizin hökumət lideri N.Yusifbəylini isə artıq "bolşevik-daşnak" duallı əllər məxfi şəkildə qətlə yetirmişdi və saxta-yabançı dillər yanlış-yabançı informasiyalar yaymaqda idilər. Bunlardan biri də guya onun öz yaxın dostu - Cümhuriyyət parlamentinin üzvü, Ərəş mahalının bəylərbəyi, millətçi "Əhrar" Partiyasının yaradıcısı, "daşnaklara qarşı mübarizə qəhrəmanı", 1918-ci ildə Gəncəni xilasa yol alan Nuru Paşanı evində şərəfətlə qonaqlayan, 1930-da güllələnmiş Qarxunlu Əşrəf bəy tərəfindən "tamah məqsədilə" öldürülməsi şayiəsi idi. Lakin İstanbulda təsadüfən ərinin sürücüsü ilə qarşılaşan Şəfiqə xanım sorğu-sual nəticəsində qətlin təfərrüatını öyrənir; daşnak-bolşeviklərin amansız təqibi səbəbilə Tiflisə (hələ sovet işğalı altına düşməmiş Gürcüstana) yollanan N.Yusifbəyli Kürdəmirdən keçərkən bolşevik xəfiyyələri tərəfindən qətlə yetirilir, yaralı sürücü isə qaçmağa macal tapır.

Maraqlıdır ki, İstanbulda universitet bitirib, tezliklə Azərbaycan mühacirlərinin sırasına (H.Zərdabinin oğlu Səffət Zərdabi ilə birgə) qatılan, bütün ömrü uzunu atasının yolunu davam etdirən Niyazi bəy də həmin mövzulardan "yaxa qurtara" bilməyib. Onlardan biri də - yaxın tariximizədək çox toxunulub-hallandırılmış Zaqafqaziya Konfederasiyası ideyası idi ki, o, bunun mahiyyətini erməni ("Daşnaksütyun") və gürcü ("Menşevik") partiyalarının yayımladığı birgə bəyannamədən bu sətirləri xüsusi şriftlərlə təqdim edib: "Əsrlərlə yan-yana yaşayan erməni və gürcülər heç bir zaman bir-biri ilə hərb etmədilər. Bu ittihad erməni və gürcülər arasında oğlan uşaqlarının dəyişdirilməsi adətinə də yol açdı və bu, iki qardaş xalq arasında "ana südü ilə qardaşlıq bağı"nı qüvvətləndirdi. Kraliça Tamara dövründə bu iki xalqı mərhəmətsiz səlcuqlardan qurtaran da məhz erməni-gürcü birləşmələri oldu..."

### Hər bir olay -

yazılana qədər şifahicə bir xatirə... Yazılı xatirəyə çevrilmə haqqı qazanan mətləblər və insanlar isə VƏTƏN obrazı, MİLLƏT portretinin irili-xırdalı atributları...

Hər hansı bir dövlətdə "Maarif naziri, Daxili işlər naziri, Baş nazir kimdir-nədir" kimi sual-ehtimallar xeyli aydın məsələ olduğundan, sözümü, ömrün 40-cı ilinədək bu qədər məsul görəvlər daşımış bu böyük Azərbaycan bəndəsinə Tanrıdan qəni-qəni rəhmət, millətimizdən müqəddəs sayğı-duyğular diləyilə bitirirəm...

**Tahir Abbaslı**

Tarixdən səhifələr...

# Vaxtilə bu günlər qəzetlər nədən yazırdı?

“Tarixdən səhifələr”də illər öncə respublikamızın ictimai-mədəni həyatı, ədəbiyyat və incəsənəti ilə bağlı qəzetlərdə dərc olunan yazılardan, xəbərlərdən seçmələr təqdim edərək dövrə, ötəri də olsa, mətbu ekskurs etməyə çalışacağıq. Seçmələr mətnlərin orijinallığı (yazı üslubu, orfoqrafiyası və s.) saxlanılmaqla təqdim edilir. Dövrün mətbu nümunələrinin əldə olunmasında göstərilən köməyə görə Azərbaycan Milli Kitabxanasına təşəkkür edirik.

## 95 il əvvəl...

### Türk səhnəsinin əlli illiyi




*Türk səhnəsinin əlli illiyi münasibətilə mərkəzdən gəlmiş hökumət teatrosu artistlərindən yoldaş Sidqi Ruhullanın iştirakı ilə ”Nadir şah” draması mövqe tamaşaya qoyuldu.*

*Həqiqətən Ağdaş səhnəsi birinci dəfə böylə bir təntənəli dramayı camaata göstəriyordu. Teatro açılmamışdan qabaq təntənəli bayramı qəza komitəsinin katibi türk səhnəsinin keçmişdə, indi və gələcəkdə oynayacağı rolu və əhəmiyyəti haqqındakı nitqi ilə açmışdır. Nəticədə aktyorlar maarif şöbəsi tərəfindən dəvət olundular.*

*”Kommunist” qəzeti, 16 aprel 1923*

## 70 il əvvəl...

### Səməd Vurğunun yaradıcılığına həsr edilmiş ədəbi gecə




*Aprelin 17-də Kirov adına Azərbaycan Dövlət Darülfünunu (indiki BDU - red.) həmkarlar komitəsi, komsomol təşkilatı və ədəbiyyat dərnəyinin təşəbbüsü ilə Stalin mükafatı laureatı, şair-dramaturq Səməd Vurğunun yaradıcılığına həsr edilən ədəbi gecə keçirilmişdir.*

*Ədəbi gecəni filoloji elmlər namizədi Cəfər Xəndan yoldaş açaraq giriş sözü söyləmişdir. Sonra darülfünunun fəlsəfə fakultəsinin üçüncü kurs tələbəsi Aslan Aslanov, filoloji fakultənin ikinci kurs tələbəsi Əlfi Qasımzadə, fəlsəfə fakultəsinin birinci kurs tələbəsi Fuad Qasımzadə, filoloji fakultənin beşinci kurs tələbəsi Fəridə Vəzirova və dil kafedrasının aspirantı Rəsul Rüstəmov Səməd Vurğunun yaradıcılığı haqqında məruzələr etmişlər.*

*Filoloji elmlər doktoru, professor M.Rəfili və şair M.Rahim çıxış edib Səməd Vurğunun yaradıcılığı haqqında danışmışlar.*

*Sonra Səməd Vurğun yoldaş çıxış edib, yığıncaqda iştirak edənlərə öz təşəkkürünü bildirmişdir. Şair bu il “Komsomol” poeması və “Bakının dastanı” əsərlərini qurtarıb oxuculara təqdim edəcəyinə söz vermişdir.*

*“Ədəbiyyat qəzeti”, 22 aprel 1948-ci il*




**Azərbaycan**



**14 aprel 1870** - Yazıçı-publisist, maarifçi, dövlət xadimi Nəriman Nərimanov (1870 - 19.3.1925) anadan olub. 1894-cü ildə Bakıda müsəlman əhali üçün ilk kütləvi kitabxananı təşkil edib. ”Nadanlıq”, ”Nadir şah”, “Bahadır və Sona”, “Şamdan bəy” və s. əsərlərin müəllifidir. Azərbaycan SSR Xalq Komissarları Şurasının sədri (1920-1922), SSRİ Mərkəzi İcraiyyə Komitəsinin həmsədri (1922-1925) olub.

**14 aprel 1907** - Xalq artisti Fatma Qədir qızı Qədri (1907 - 29.2.1968) anadan olub. Səhnə fəaliyyətinə 1927-ci ildə Bakı Türk İşçi Teatrında başlayıb. Rus Dram Teatrında, Milli Dram Teatrında çıxış edib, pedaqoji fəaliyyət göstərib.

**14 aprel 1952** - Telejurnalist, Milli Qəhrəman Alı Mustafa oğlu Mustafayev (1952 - 20.11.1991) Qazax rayonunda doğulub.

**14 aprel 1950** - Teatrşünas, sənətşünaslıq doktoru, professor, Əməkdar incəsənət xadimi Məryəm Əli qızı Əlizadə Bakıda anadan olub.

**15 aprel 1892** - Nasir, tərcüməçi Əli Səbri (Əli Camal oğlu Qasımov; 1892 - 19.2.1983) anadan olub.

**15 aprel 1905** - Memar, akademik Sadiq Ələkbər oğlu Dadaşov (1905-1946) anadan olub. Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, “Nizami” kinoteatrı, Bakı Musiqi Akademiyasının binası və s. tikililərin layihələşdirilməsində iştirak edib.

**15 aprel 1907** - Azərbaycan Rəssamlar İttifaqının ilk sədri İsmayıl Hüseyn oğlu Axundov (1907 - 13.9.1969) anadan olub. Qrafika, dekorativ-tətbiqi sənət, teatr rəssamlığı sahəsində çalışıb. «Koroğlu» operasının ilk geyim eskizlərinin yaradılmasında iştirak edib.

**15 aprel 1912** - Şair, publisist Əkbər Məftun (Əkbər Qurban oğlu Əkbərov; 1912-1990) anadan olub.

**15 aprel 1928** - Cənubi Azərbaycan şairi Səhənd (Bulud Qaraçorlu Səhənd; 1928-1979) Marağa şəhərində doğulub.



**16 aprel 1934** - Bəstəkar, Xalq artisti Ramiz Aqil oğlu Mirişli (1934 - 17.4.2015) Naxçıvanda doğulub. Musiqili komediyalar (“Qaçırılmış qız”, “Gəl, qohum olaq”, “Amerikalı kürəkən” və s.), simfonik əsərlər, çoxsaylı mahnılar (”Oxu, tar”, ”Dalğalar”, ”Bayram axşamları” və s.), ”Alma almaya bənzər”, “Qəzəlxan” və s. filmlərə musiqi yazıb.

**16 aprel 1906** - Bakıda ”Dəbistan” maarifçi jurnalı nəşrə başlayıb. 1908-ci ilin martınadək nəşr olunan jurnalda uşaqların təlim-tərbiyəsinə dair bədii əsərlər, elm-texnika yenilikləri dərc edilirdi. Jurnalın fəaliyyətində N.Nərimanov, H.Zərdabi, M.Ə.Sabir, M.Hadi, A.Şaiq və s. tanınmış ziyalılar iştirak ediblər.

**16 aprel 1916** - Bəstəkar, Əməkdar incəsənət xadimi Qəmbər Muxtar oğlu Hüseynli (1916 - 1.8.1961) anadan olub. Məşhur ”Cücələrim” mahnısının (sözləri - Tofiq Mütəllibov), ”Ay işığında”, ”Gecələr uzanaydı”, ”Düşür yadıma” və s. populyar mahnıların müəllifidir.

**Dünya**

**14 aprel 1925** - Amerika aktyoru, «Oskar» laureatı Rod Stayger (Rodney Stephen Steiger, 1925-2002) anadan olub. “Al Kapone”, “Vaterloo”, “Doktor Jivaqo” filmlərində çəkilib.

**14 aprel 1930** - Litva kinorejissoru Vitautas Jalakyaviçus (1930-1996) anadan olub. Filmləri: “Heç kim ölmək istəmirdi”, “Bu şirin söz - azadlıq” (filmdə azərbaycanlı aktyorlar da çəkilib) və s.

**15 aprel** dünyada qeyri-rəsmi olaraq “Beynəlxalq mədəniyyət günü” kimi qeyd olunur. Günün tarixi rus rəssamı, arxeoloq və yazıçı Nikolay Rerixin təşəbbüsü ilə 1935-ci il aprelin 15-də Vaşinqtonda “Bədii, elmi müəssisisə və tarixi abidələrin qorunması haqqında” müqavilənin (Rerix paktı) imzalanması ilə bağlıdır. Sonradan bu paktın müddəaları BMT və UNESCO-nun mədəni irslə bağlı sənədlərində inkişaf etdirilib.



**15 aprel 1452** - Böyük italyan rəssamı, heykəltəraş, memar, ixtiraçı, Avropa İntibahının görkəmli nümayəndəsi Leonardo da Vinçi (Leonardo di ser Piero da Vinci, 1452 - 2.5.1519) Florensiyada doğulub. Məşhur əsərləri: “Mona Liza” (“Cokonda”), “Sonuncu şam” və s.

**15 aprel 1489** - Memar Sinan (Sinaneddin Yusif Abdülmennan oğlu; 1489 - 7.2.1588) Kayseridə doğulub. İstanbulda Süleymaniyə camisi, Ədirnədə Səlimiyə camisi, körpülər və s. tikililərin müəllifidir.

**15 aprel 1949** - Rus estrada müğənnisi, SSRİ Xalq artisti Alla Puqaçova anadan olub. İfa etdiyi mahnılar 100-dən çox qramplastinka və diskdə 250 milyon tirajla yayılıb.

**15 aprel 1949** - Türk aktyoru Kadir İnanır anadan olub. Filmləri: “Tatar Ramazan”, “İllərin qisası”, “Bir udum sevgi” və s.



**16 aprel 1844** - Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1921) laureatı Anatol Frans (Anatole France - François-Anatole Thibault; 1844-1924) anadan olub. Əsərləri: “Müasir tarix” silsilə romanları, “Mələklərin üsyanı” və s.

**16 aprel 1889** - Məşhur ingilis aktyoru, rejissor, ssenarist Çarli Çaplin (Charles Spencer Chaplin, 1889 - 25.12.1977) Londonda doğulub. 1910-1940-cı illərdə Amerikada yaşayıb, 1952-ci ildə İsveçrəyə köçüb. Filmləri: “İt həyatı”, “Uşaq”, “Qızıl hərisliyi”, “Böyük diktator” və s. Fəxri “Oskar”a (1972) layiq görülüb.

**16 aprel 1924** - Amerika bəstəkarı və dirijoru Henri Mançini (Enrico Nicola Mancini, 1924-1994) anadan olub. 500-dək filmə musiqi yazıb, 4 dəfə “Oskar”, 20 dəfə “Qremmi” mükafatına layiq görülüb.

*Hazırladı: Vüqar Orxan*

## AFİŞA

**14-15 aprel**

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**
**Nizami küçəsi 95**

| | | |
|---|---|---|
| 14 aprel | P.Çaykovski - “Romeo və Cülyetta”; N.Rimski-Korsakov - ”Şəhrizad” (balet) | 19.00 |
| 15 aprel | Q.Donisetti - ”Sevgi şərbəti”(opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı**
**Füzuli meydanı 1**

| | | |
|---|---|---|
| 14 aprel | İ.Əfəndiyev - “Mənim günahım” | 19.00 |
| 15 aprel | C.Cabbarlı - “Almaz” (ingilis dilində titrlərlə) | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı**
**Zərifə Əliyeva küçəsi 8**

| | | |
|---|---|---|
| 14 aprel | Rus xalq nağılı - “Qoğalın sərgüzəştləri” (rus dilində)<br>Elçin - “Baladadaşın toy hamamı” | 12.00<br>19.00 |
| 15 aprel | V.Ulanovski, V.Orlov - “Qızıl cücə” (rus dilində)<br>F.Əmirovun musiqiləri əsasında - “999-cu gecə” | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı**
**Xaqani küçəsi 7**

| | | |
|---|---|---|
| 14 aprel | V.Reznikova – “Durna balığının əmri ilə”<br>Y.Polyakov – “Xalam Bundu” | 12.00<br>19.00 |
| 15 aprel | A.Puşkin – “Çar Saltan, knyaz Qvidon və çariça Qu quşu haqqında nağıl”<br>V.Korkiya, A.Lavrin – “Kazanova: sevgi dərsləri” | 12.00<br>19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı**
**Nizami küçəsi 72**

| | | |
|---|---|---|
| 14 aprel | A.Tolstoy - “Buratinonun macəraları”<br>H.Cavid - “Şeyx Sənan” (ingilis dilində titrlərlə) | 12.00, 14.00<br>19.00 |
| 15 aprel | E.Uspenski - “Çeburaşka”<br>C.Cabbarlı - “Aydın” | 12.00, 14.00<br>19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı**
**Neftçilər prospekti 36**

| | | |
|---|---|---|
| 14 aprel | S.Marşak - “Pişiyin evi”<br>Rus xalq nağılı - “Durna balığı” (rus dilində) | 12.00, 14.00<br>16.00 |
| 15 aprel | Ş.Perro - “Qırmızıpapaq”<br>Rus xalq nağılı - “Qoğal” (rus dilində) | 12.00, 14.00<br>16.00 |

**Yuğ Dövlət Teatrı**
**Neftçilər prospekti 36 (Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 15 aprel | K.Abdulla - “Səsimi unutma” | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı**
**Azadlıq prospekti 10**

| | | |
|---|---|---|
| 14 aprel | B.Əhmədli - “Ora-bura” | 18.00 |
| 15 aprel | E.Rzayev - “Qoca və Mələk” | 18.00 |

**Heydər Əliyev Sarayı**
**Bülbül prospekti 35**

| | | |
|---|---|---|
| 14 aprel | “Rock Hits Show” adlı konsert. Dirijor İqor Ponomarenko (Sankt-Peterburq) | 19.00 |
| 15 aprel | Uşaqlar üçün “Ələddin nağılı” müzikli | 13.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası**
**İstiqlaliyyət küçəsi 2**

| | | |
|---|---|---|
| 14 aprel | Qara Qarayevin 100 illik yubileyinə həsr olunmuş festival çərçivəsində “Tristessa” müasir musiqi gecəsi. Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri. Dirijor – Fuad İbrahimov, solist – Fəridə Məmmədova (soprano) | 19.00 |

# Azərbaycan ədəbiyyatı Rusiya mətbuatında

Azərbaycan Tərcümə Mərkəzinin milli ədəbiyyatın beynəlxalq miqyasda tanıdılması və təbliği istiqamətində həyata keçirdiyi növbəti layihə olaraq Rusiyanın "Literaturnaya qazeta" nəşrində "Müasir Azərbaycan ədəbiyyatı" səhifəsi oxucuların görüşünə gəlib.

Qəzetin 11 aprel tarixli sayında Əli Kərimin "Qayıt", "Daş", "Analar ağlayır", Vaqif Səmədoğlunun "Qaya", "Şopen", "Səhər açılır", Ramiz Rövşənin "Göy üzü daş saxlamaz", "Ay işığı", Vaqif Bayatlının "Göy üzünə qalxan dəniz", "Biz qəribik", "Həyat davam edir" şeirlərinin dərc olunduğu qoşa səhifə "Baş verən şeirlər" ön sözü ilə təqdim edilir.

Ön sözdə Rusiyanın geniş oxucu auditoriyasına təqdim olunan bu ədəbi simaların hər birinin yaradıcılığı ayrı-ayrılıqda və birlikdə Azərbaycan ədəbiyyatının əlamətdar hadisəsi kimi qeyd edilir: "Bu şairlərə populyarlıq qazandıran, ilk növbədə, onların poetik istedadının miqyası və potensial imkanlarının genişliyi idi. Nəzərinizə təqdim edilən bu şeirləri oxuduqca, istər-istəməz Yevgeni Yevtuşenkonun "Şeirlər yazılmır - baş verir" sözləri yada düşür".

# Muzeydə şairə həsr edilmiş kitabların təqdimatı

**Səməd Vurğunun ev-muzeyində "Səməd Vurğun: Seçilmiş əsərləri", "Səməd Vurğunun ev-muzeyi" və "Sonsuz ömrün yolçusu - Yusif Səmədoğlu" kitablarının təqdimatı keçirilib.**




Muzeyin direktoru Nüşabə Vəkilova redaktoru olduğu "Səməd Vurğunun ev-muzeyi" və "Sonsuz ömrün yolçusu - Yusif Səmədoğlu" kitabları barədə məlumat verib.

Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, "Səməd Vurğun: Seçilmiş əsərləri" kitabının redaktoru, filologiya üzrə fəlsəfə doktoru Aslan Salmansoy, AMEA-nın şöbə müdiri, filologiya elmləri doktoru Şirindil Alışanlı, Bakı Dövlət Universitetinin müəllimi Məti Osmanoğlu, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırova və başqaları kitabların gələcək nəsillər üçün böyük ərməğan olduğunu söyləyiblər. Qeyd edilib ki, təqdim olunan kitablarda müxtəlif nəşrlərdə, jurnalların səhifələrində, eləcə də digər mətbu orqanlarda dərc olunanlardan əlavə yeni aşkarlanan faktlar da var.

# Həyatın hərtərəfli bədii əksi

**Ötən əsrin ikinci yarısında əxlaqi-didaktik əsərləri ilə ədəbiyyatımızı zənginləşdirən müəlliflərdən biri də nasir, dramaturq, tərcüməçi və teatr xadimi Nağı Nağıyev olub.**



13 iyul 1910-cu ildə Culfa rayonunun Yaycı kəndində dünyaya göz açan Nağı Kərim oğlu Nağıyev ilk olaraq mədrəsədə və "Üsuli-cədid" məktəbində təhsil alıb. 1930-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirib. 1935-1938-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Dil və ədəbiyyat fakültəsində oxuyub. 1941-ci ilədək Ordubad və Babək rayonlarının kənd məktəblərində müəllimlik edib. 1942-1945-ci illərdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsində mətbuat bölməsinin müdiri, 1946-1949-cu illərdə Naxçıvan Mətbuat İdarəsinin rəisi, 1949-1951-ci illərdə Naxçıvan Dövlət Radio Verilişləri Komitəsinin müdiri vəzifələrində çalışıb.

Nağı Nağıyev Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan filialının açılmasında fəallıq göstərir. Sonra bu qurumun məsul katibi təyin edilir. Bu təşkilat Naxçıvanda ədəbi mühitin inkişafına müsbət təsir göstərir. O həm də gözəl teatr rəssamı olub. Naxçıvan teatrında quruluşçu rəssam kimi "Hacı Qara", "Yaşar", "Polad" ("Ölümdən həyata") və digər əsərlərə bədii tərtibat verib.

1951-ci ildə Bakıya köçən N.Nağıyev 25 il Azərbaycan Dövlət Nəşriyyatında Bədii ədəbiyyat şöbəsinin müdiri, böyük redaktor vəzifələrində çalışıb. Dövrün görkəmli yazıçı və şairlərindən Səməd Vurğun, Mir Cəlal Paşayev, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rəhimov, Süleyman Rüstəm və digərləri ilə sıx yaradıcılıq münasibətləri qurub. Bir sıra müəlliflərin kitablarının redaktoru olub.

Qırx ilə yaxın bədii yaradıcılıqla məşğul olan müəllifin "Həsrət" romanı onun ilk irihəcmli əsəridir. Mövzusu kənd həyatından götürülüb. "Yer altında" povestində Naxçıvan duz mədəni işçilərinin ağır və şərəfli əməyindən bəhs edilir. Onun "Qaynar bulaqlar", "Sumqayıtda", "Milyoner briqada", "Geoloqlar", "Püskürən dərə" adlı oçerkləri isə həyatın müxtəlif sahələrində çalışan müxtəlif peşə adamlarının fəaliyyətinə işıq salır.

O, əsərlərində daim həyat reallıqlarına söykənib. İştirakçısı olduğu və ya yaxından izlədiyi hadisələri təxəyyül süzgəcindən keçirib. N.Nağıyevin yaradıcılığı ilə yaxından tanış olan Xalq yazıçısı Süleyman Rəhimov onun 60 illik yubileyi ərəfəsində yazıb: "Mənalı hekayələrini oxuyarkən bu sakit, yorulmadan çalışan, bir qabil redaktor kimi əsərlərimizin üzərində əmək sərf eləyib yeri düşdükcə xeyirxah məsləhətləri ilə bizə kömək edən Nağı gözümdə öz yaradıcılığı ilə bir daha yüksəldi. O, qələmə aldığı mövzuları, təsvir etdiyi hadisələri elə real, inandırıcı yazır ki, oxuyarkən deyirsən: "Nağı müəllimdir, Nağı ovçudur, Nağı aqronomdur, hərbçidir, həkimdir və s... Nağı Nağıyevin "Həsrət" romanını oxuyarkən onun həyatı necə hərtərəfli bildiyinin şahidi olursan..."

Müəllifin "Miniatür yazılar" əsərində yer alan satiralar daha çox tərbiyəvi xarakter daşıyır. Ona görə də həyatda baş verən neqativ hallara münasibət bildirərkən uşaqları da unutmur. Uşaqlar üçün həm maraqlı, həm də təsirli olsun deyə şəxsləndirmə üsulundan ustalıqla istifadə edir. "Uşaq və qəcələ" miniatür yazısında qəcələ (bəzi bölgələrdə sağsağan quşuna verilən ad - red.) qanadları ilə öyünür. Uşağın qanadı olmadığı üçün xiffət edir. Yazıçı bu zaman bir şəxsin dili ilə ona təsəlli verir. Uşağa deyir ki, sənin də qanadların var... Əgər sən elm və sənət öyrənsən, onlar da sənin qanadların olar. Uşaq da bundan təskinlik tapır.

"Ədəb mağazası" miniatür yazısında isə yazıçı qocanın dili ilə uşağa öyüd verir: "Bala, ədəb mağazası hər adamın öz evidir. Satıcılar da ata və analarıdır. Evə çatanda ədəbin yerini soruşun, əsirgəməzlər, verərlər".

Nəzakət Hüseynqızı araşdırmasında yazır ki, N.Nağıyev kiçik həcmli əsərlərində böyük hikmət ifadə etməyə müvəffəq olub.

Bədii tərcümə sahəsində də uğurlu fəaliyyət göstərən Nağı Nağıyev 13 may 1981-ci ildə Bakıda vəfat edib.

**Savalan Fərəcov**



# Şamaxı dəfinəsində nə var?

Şamaxı şəhərində aşkarlanmış saxsı küpün içərisində olan dəfinə Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin numizmatika və epiqrafika elmi fond şöbəsinə təhvil verilib.

Akademiyadan bildiriblər ki, 21 ədəd tam, 860 qram paslı və fraqmentşəkilli sikkələrdən ibarət olan dəfinə muzeyin bərpa laboratoriyasında təmizlənib. Müəyyənləşdirilib ki, bu dirhəmlər Şirvanşah Yəzid ibn Əhmədin (991-1027) hakimiyyəti dövründə zərb edilib. Bir sıra Qafqaz dəfinələrində aşkarlanmış, X əsrin sonu - XI əsrin əvvəllərinə aid Şirvanşahların adları olan belə sikkələr Azərbaycanda sikkə zərbi və pul ticarətinin səciyyəvi cəhətlərini açıqlayan faktdır.

# İnsanın fikirlərini "eşidən" cihaz hazırlanıb

ABŞ-ın Massaçussets Texnologiya İnstitutundan olan mühəndislər qrupu insanın düşüncələrini "eşidən" "AlterEgo" cihazını hazırlayıblar. Ayrı-ayrı sözlərin düşüncə ilə tələffüz edilməsi ilə korrelyasiya edilən qulaqlıqlar sifət və beyin əzələlərinin zəif hərəkətlərini oxuyur və alınmış informasiyanı radiosiqnala çevirir.

"AlterEgo" istifadəçi ilə kəllə sümükləri üzrə qulağa ötürülən və səs siqnalı kimi qəbul edilən vibrasiyaların köməyi ilə ünsiyyət qurur. İstifadəçi "vaxt" sözünü "düşünərək" sorğu göndərir, cavab istifadəçinin qulaqlarına dərhal ötürülür və ətrafdakı şəxslər tərəfindən eşidilmir.

Qurğu hələlik düşünülmüş az sayda əmrləri qəbul edir. Düşüncələri tanıma dəqiqliyi 92 faizə qədərdir. Maşın təlimi alqoritminə analiz üçün daha çox material təqdim etməklə bu faizin yüksəldilməsi nəzərdə tutulur. Bunun üçün sınaqlar zamanı daha çox könüllüyə ehtiyac olacağı bildirilir.

Cihazın yaradıcıları güman edirlər ki, "AlterEgo" hələlik hazırlanma mərhələsində olan neyrointerfeysləri əvəz edə biləcək.

# "Təzkirətül-övliya" əsəri çapdan çıxıb




XX əsrin əvvəlində geniş maarifçilik fəaliyyəti ilə məşğul olan Hacı Şıxəli Feyzullahzadənin "Təzkirətül-övliya" əsəri çap olunub.

Kitab Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan və 1917-ci ildə "Açıq söz" elektrik mətbəəsində işıq üzü görmüş çap nüsxəsi əsasında nəşrə hazırlanıb.

İnstitutdan bildiriblər ki, Hacı Şıxəli Feyzullahzadə ötən əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən "Səadət" mədrəsəsinin müdiri olub və yazıçılıq məharəti ilə fərqlənib. Onun Osmanlı ləhcəsində yazdığı bu kitabda on dörd məsumun həyat və fəaliyyəti əksini tapıb.

Kitabı institutun əməkdaşı Rauf Şeyxzamanlı nəşrə hazırlayıb. Bəzi istisnalarla əsərin dil və üslub xüsusiyyətləri qorunub saxlanılıb.

# Kann kinofestivalı
# İran rejissorunun filmi ilə açılacaq



PALME D'OR
FESTIVAL DE CANNES

Mayın 8-dən 19-dək Fransanın Kann şəhərində ənənəvi beynəlxalq film festivalı keçiriləcək.

71-ci Kann kinofestivalı İran rejissoru Əsgər Fərhadinin "Hamı bilir" filmi ilə açılacaq. Ekran əsəri mayın 8-də "Lümyerlər teatrı"nda nümayiş olunacaq. İspaniya, Fransa və İtaliyanın birgə istehsalı olan filmdə baş rollarda Penelopa Krus və Xavyer Bardem oynayır.

"Hamı bilir" filmi argentinalı ailədən bəhs edir. Onlar Buenos-Ayresdən kiçik ispan şəhərinə yollanırlar. Səfər bir çox sirlərin üstünü açan gözlənilməz hadisələrlə müşayiət olunur.

Qeyd edək ki, dünyanın ən nüfuzlu kinofestivalı müddətində Azərbaycan filmləri də nümayiş olunacaq. Rejissor və prodüser Teymur Hacıyev "Kanöz" film layihəsi ilə ölkəmizi Kannda ikinci dəfə təmsil edəcək. Layihə çərçivəsində rejissorun "Dağılmış" ("Torn") filmi nümayiş olunacaq.

Film dam ustası olan bir kişinin həyatından bəhs edir. Ailəsində baş verən bəzi hadisələrdən sonra onun həyatı dəyişir və bugünkü günümüzü əks etdirən hadisələr yaşanmağa başlanır.

Azərbaycanlı rejissor Elvin Adıgözəlin "Yaşar" kinolayihəsi isə Kann festivalının "L'atelier" proqramında nümayiş olunacaq. Bu proqrama 15 ekran işi daxildir. "L'atelier" proqramı Kann kinofestivalının tərkibində 2005-ci ildə bu sahədə yeni nəsil yaradıcı insanların üzə çıxarılması məqsədilə təsis olunub.

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasından verilən məlumata görə, festivalın tarixində ilk dəfə olaraq bu siyahıya azərbaycanlı rejissorun filmi salınıb. "Yaşar" Elvin Adıgözəlin üçüncü tammetrajlı filmidir.

**İlona**

# Türkmənistanda "İpək Yolu" abidəsi



Türkmənistanın Amudərya şəhərində "İpək Yolu" monumentinin təntənəli açılışı olub. 28 metr hündürlüyündə olan heykəltəraşlıq kompozisiyası Amudərya avtomobil və dəmir yolu körpülərinin yanında hazırlanıb. Abidənin yuxarı hissəsi Yer kürəsi formasında simvolik olaraq avtomobil, dəmir yolu, su və hava magistral yollarını birləşdirir.

Abidənin tikintisində ən müasir kompozisiya və bəzək materiallarından istifadə olunub.

Türkmənistanda nəqliyyat infrastrukturunun inkişafı beynəlxalq səviyyəli iri layihələrin tərkib hissəsidir. Bu ideya "İpək Yolu" monumentində simvolik tərtibatını tapıb.

Mədəniyyət
Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
www.medeniyyet.az
13 APREL 2018
29 [1519]

# Bakıda ilk dəfə Latın Amerikası kinofestivalı

## Argentina, Braziliya, Kolumbiya, Kosta Rika, Kuba, Peru və Meksika filmləri göstəriləcək




Meksikanın Azərbaycandakı səfirliyinin təşkilati dəstəyi ilə aprelin 16-dan 19-dək Bakıda ilk Latın Amerikası kinofestivalı keçiriləcək.

Səfirlikdən bildiriblər ki, festival çərçivəsində filmlər "Park Cinema" ("Flame Towers") kinoteatrında, "Landmark" kompleksinin kino zallarında, həmçinin Azərbaycan Dillər Universitetinin binasında nümayiş etdiriləcək.

Festivalın keçirilməsində əsas məqsəd Azərbaycan tamaşaçılarını Latın Amerikası ölkələrinin mədəniyyəti və ənənələri, xüsusilə kinematoqrafiya tarixi və istiqamətləri ilə yaxından tanış etməkdir. Festival çərçivəsində Argentina, Braziliya, Kolumbiya, Kosta Rika, Kuba, Peru və Meksika istehsalı olan yeddi ekran əsəri təqdim ediləcək. Filmlər ingilis dilində subtitrlər ilə ispan və portuqal dillərində göstəriləcək. Bütün seanslara giriş sərbəstdir.

# "Maraqlı Çin dili və əlvan bahar"

Bakı Dövlət Universitetinin nəzdindəki Konfutsi İnstitutunun "Maraqlı Çin dili və əlvan bahar" mövzusunda tədbiri Çin kalliqrafiyası və rəssamlığına həsr edilib.

Üç hissədən ibarət tədbirdə Çin kağız kəsmə sənəti, Çin kalliqrafiyası və Pekin operasında qrimləmədən bəhs olunub.

İnstitutun Çin tərəfdən direktoru Luo Syaoçjı tədbir iştirakçılarını salamlayaraq deyib: "Baharın gəlişi ilə təbiət oyanır. Bu, ilin ən parlaq və əlvan mövsümüdür. Bugünkü tədbirimizin məqsədi odur ki, arzu edən hər kəs baharı Çin dili və bizim qədim incəsənətimizlə tanışlıq vasitəsilə qarşılasın".

Sonra tədbir iştirakçıları üç sərgi stendinə baş çəkib, ustad dərsləri zamanı yiyələndikləri təcrübəni nümayiş etdiriblər. Konfutsi İnstitutunda, həmçinin "Çin mənim gözlərimlə" mövzusunda rəsm müsabiqəsi keçirilib. İnstitutun tələbələrinin əl işləri maraqla qarşılanıb.



# Dronun köməyi ilə arxeoloji tədqiqat



Polşalı gənc arxeoloqlar İsrailin Neqev səhrasında tədqiqata başlayan ilk Avropa qrupudur. Tədqiqat dron (pilotsuz uçan aparat) vasitəsilə aparılır. Söhbət eramızdan əvvəl II əsrə aid qədim şəhərin xarabalıqlarının müasir və eyni zamanda ucuz başa gələn yolla öyrənilməsindən gedir.

İdeyanın müəllifi - Krakovda Yaqellon Universitetinin aspirantı Matsey Vatslavik dronun daha dəqiq məlumat əldə etmək imkanı verdiyini bildirib. O deyib: "Dronun köməyilə biz yarım saat və ya bir saat müddətində tədqiqat aparılan ərazinin üzərindən keçər və yaxşı görüntü əldə edərik. Əvvəllər yerüstü metodla buna təxminən 2 həftə lazım gələrdi. İndi bizi başqa perspektiv gözləyir və təsviri qrunt səviyyəsindən deyil, 90 dərəcəlik bucaq altında yüksəklikdən əldə edirik".

Neqevanın şimalındakı qədim Nabatey şəhəri vaxtilə karvanların keçidiyi iki yol arasında salınmışdı. Şəhər sonralar romalılar tərəfindən dağıdılıb.

**Bəhruz**

**Baş redaktor:**
Vüqar Əliyev

Qəzet 1991-ci ildən çıxır.

**Ünvanımız:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Tel.:** (012) 431-57-72; 431-28-79; 430-16-79
**Tel/faks:** (012) 431-28-79;
**E-mail:** qazet@medeniyyet.az

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "B-Z" mətbəəsində çap olunmuşdur.

Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə olunur.

KAPİTAL BANKın
Yasamal filialı kod: 200037
VÖEN 9900003611
M/h AZ37NABZ01350100000000001944
SWIFT BIK AIIBAZ2X
H/h AZ98AIIB33080019443300232103
VÖEN 1300338641
Lisenziya №AB 022279
İndeks 0187

**Buraxılışa məsul:**
Fariz Yunisli

**Tiraj:** 5215

*Materiallardakı faktlara görə müəlliflər cavabdehdir.*